UNİKAL

№28 (2258) 1 avqust 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# Darman monopolistlərinin ağlasığmaz soyğunu: Nəzarətçi qurumlar aciz qalıb



Səh.5

# Zaur Əliyevin "kreslosu laxlayır"

*Hesablama Palatası İcbari Tibbi Sığorta Fondunun 2023-2024-cü illərdəki gəlir və xərclərinin icrasının, eləcə də sərbəst vəsaitinin idarə olunmasının hüquqi aktların tələblərinə uyğunluğunun qiymətləndirilməsi məqsədi daşıyan kənar dövlət maliyyə nəzarəti tədbiri həyata keçirib. Audit obyektləri kimi Fondun vəsaitlərini idarə edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, eləcə də, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində olan tibb müəssisələrinin təchizatı və təmiri və s. istiqamətdə tədbirləri həyata keçirən İnnovasiya və Təchizat Mərkəzi müəyyən edilib. Nəticədə ciddi nöqsanlar aşkarlanıb. Öncə bu nöqsanlardan bəzilərinə göz ataq. Məsələn: auditlə dövlət büdcəsindən əhalinin sığortalanmasına ayrılan vəsaitlərin proqnozlaşdırılması...*

Səh.8

## "Qəbul planı və ixtisas seçimi ilə bağlı köklü islahata ehtiyac var"



*Təhsil eksperti Kamran Əsədov "Unikal"a müsahibə verib. O, abituriyentlərin ixtisas seçimi zamanı nələrə diqqət etməli olduğundan, ayrılan plan yerləri uğrunda mübarizənin necə olacağından, ali təhsil müəssisələrində müəllimlik ixtisaslarının sayının azaldılmasından və qarşıdakı illərdə hansı...*

Səh.4

## "Günahkar Azərbaycan yox, bizik" - Pezeşkian



*"Azərbaycan bizim xalqımızdır, doğmalarımızdır!". "Unikal" xəbər verir ki, bu fikri İran prezidenti Məsud Pezeşkian deyib. O, Zəncan vilayətinə səfəri zamanı Azərbaycan Respublikasına qarşı keçmiş yanaşmaları tənqid edib və vurğulayıb ki, Tehran bu ölkə ilə dostluq əlaqələrinin qurulmasında liderlik etməlidir...*

Səh.3

## Azərbaycanda insan hüquqlarının qorunması və qanunvericiliklə bağlı mühüm addımlar atılıb



*İnsan hüquqlarının təmin edilməsi demokratik ölkələrin prioritet siyasi xətti, dövlətin ali məqsədidir. Azərbaycan dövləti də ölkədə insan hüquqlarının qorunmasına, hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. Ölkəmizin insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara...*

Səh.11

# Rəqsanəni ələ saldı: “Get balonunu bağla...”



***Müğənni Günel Ələkbərova atmacal sözləri ilə diqqət çəkib.***

Milli.Az xəbər verir ki, o, ”Dream Fest”də iştirak edən yerli sənətçilərə ağız büzən Rəqsanəni ələ salıb.

”Pişik Günel” ləqəbli ifaçı video yayımlayaraq bəzi həmkarlarının ”bostanını daşlayıb”: ”Rəqsanə üçün ürəyim gedir, yaxşı qızdır. Amma balon bağlayıb oradakı müğənniləri müzakirə edir. Ayseli bəyənmədi. Ona ”qocalıb”, digərlərinə ”budları nə boydadır” dedi. Adama deyərlər, get balonunu bağla. İnsan analıq məzuniyyətində olub, üç uşaq dünyaya gətirib. Ayselin heç bir estetik əməliyyatı yoxdur və çox gözəl qızdır. Nikoldan pis görünürdü bəyəm? Paltarı da çox gözəl idi. Roza Zərgərli mahnı oxuyanda Nikol Şerzinqer onu videoya çəkirdi. Niyə bu cür müsbət şeyləri müzakirə etmirik? Bir az özümüzünkülərə dəyər verin. Bu, bizim hamımızın uğurudur”.

# "Gec olmadan oyanın, səssiz qalmayın" - Günel Zeynallı

***Müğənni Günel Zeynallı sosial media hesabında paylaşım edib.***



İfaçı Qəzzada hökm sürən acınacaqlı vəziyyətdən yazıb. ”Qəzza... Allahın bir planı, səbəbi vardır. Hikməti heç boşuna deyildir. İnsanlar, gec olmadan oyanın və səssiz qalmayın. Yox olmaq, yeniden doğulmaqdır” deyə, Günel paylaşımında bildirib.

Qeyd edək ki, Qəzzada aclıqdan ölənlərin sayı artıq 100-ü ötüb. Hazırda Qəzza zolağında ağır humanitar böhran hökm sürür.

# Müğənni Dəniz Əsədova həbsdə qaldı



***Həbsdə olan müğənni Dəniz Əsədovanın barəsindəki hökmdən verdiyi şikayətə baxılıb.***

“Unikal” xəbər verir ki, bu barədə ”Report”a vəkil, həmçinin iş üzrə xüsusi ittihamçı olan Asim Abbasov məlumat verib.

O bildirib ki, Bakı Apellyasiya Məhkəməsində keçirilən prosesdə Dəniz Əsədovanın şikayəti təmin edilməyib və barəsində olan 7 ay azadlıqdan məhrumetmə cəzası qüvvədə qalıb.

Qeyd edək ki, vəkil onun barəsində böhtan və təhqir xarakterli məlumatlar yaydığı üçün müğənni Dəniz Əsədovanı məhkəməyə verib.



## "Səhnədə 4 övladımı itirdim" - Brilliant Dadaşova

***Xalq artisti Brilliant Dadaşova şəxsi həyatı ilə bağlı etiraf edib.***

“Unikal” xəbər verir ki, müğənni 4 övladını itirdiyini bildirib.

Sənətçi əcnəbi ifaçının səhnədə rəqs videosunu yayımlayaraq ”Mənim də səhnədə 4 uşağım belə getdi” şərhini yazıb.

## “Vəziyyəti ağır olaraq qalır” - Arif Babayevin oğlu

***Xalq artisti Arif Babayevin vəziyyəti ağır olaraq qalır.***



Bu barədə “Qafqazinfo”ya xanəndənin oğlu Yaşar Babayev məlumat verib. “Vəziyyətində heç bir yenilik yoxdur, ağır-stabil olaraq qalır. Allahın izni ilə yaxşı olar. Çox çətindir”, - deyə o bildirib.

Qeyd edək ki, bir həftə öncə səhhəti pisləşən A.Babayevin müalicəsi Mərkəzi Klinikanın Reanimasiya və intensiv terapiya şöbəsində davam etdirilir.

## "Bığıma rəng qoyuram, əcəb edirəm"

***Əməkdar artist Qorxmaz Əlilicanzadə saçına boya qoyması ilə bağlı sualları cavablandırıb.***



Aktyor bu haqda ”Elgizlə izlə”də söz açıb. O bildirib ki, insanlar saçına rəng qoyduğunu deyib, onu tənqqid edirlər: ”Allaha and olsun, saçıma rəng qoymuram. Bizim nəsldə saç gec ağarır. Bığıma rəng qoyuram. Təsəvvür edin, rəng qoyuram, saçım qapqara, bığım ağ. Necə olacaq? Rəng qoysam da əcəb edirəm, sizə nə var? Həyatımı yaşayıram”. (Axşam.az)

28_27 IYUl-QARA.qxd 7/31/2025 9:34 PM Page 3






## FHN hava şəraiti ilə əlaqədar əhaliyə müraciət etdi

***Fövqəladə Hallar Nazirliyi isti və quru hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib.***

Bu barədən ”Unikal”a nazirlikdən məlumat verilib. Bildirilib ki, isti və quru hava şəraitində kiçik ehtiyatsızlıq və ya diqqətsizlik müxtəlif məkanlarda, xüsusilə açıq sahələrdə və meşə massivlərində yanğınlarla nəticələnə bilər, həmçinin isti havalardan qorunmaq üçün məişət cihazlarına (kondisioner və s.) tələbatın artması elektrik naqillərinin yüklənib sonda qısaqapanmaya səbəb olma riskini artırır:

”Bununla əlaqədar Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, yüksək temperaturun yanğın təhlükəsini artırdığını nəzərə alaraq yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etməyə çağırır.

Belə ki,

- əkin sahələrində, xırmanlarda, ot tayaları yığılan yerlərdə və onların yaxınlığında açıq oddan istifadə etməyin və siqaret çəkməyin;
- nasaz kənd təsərrüfatı texnikalarını əkin sahələrində istismar etməyin;
- sürtgü yağı, benzin, ağ neft, dizel yanacağı və digər yanar mayelərlə islanmış materialları, eləcə də şüşə qab və şüşə qırıntılarını ətrafa atmayın;
- siqaret kötüyü və kibriti tam söndürülməmiş atmayın;
- fərdi yaşayış evləri, təsərrüfat və istehsalat müəssisələrinin həyətlərini quru ot və tullantılardan vaxtaşırı təmizləyin;
- təbiət qoynunda tonqal qalayarkən bunun üçün xüsusi hazırlanmış yer, yaxud köhnə tonqalın yerini, quru ot, kol-kos, ağac və ağac qırıntılarının olmadığı açıq sahəni seçin, ətrafını 0,5-1 metr radiusda otlardan təmizləyin və tonqalı nəzarətsiz qoymayın;
- tonqalın tam söndüyünə əmin olmadan ərazini tərk etməyin - tonqal əvvəlcə su ilə söndürülməli, sonra isə üstü torpaqla örtülməlidir;
- küləkli havada tonqal qalamayın;
- yadda saxlayın ki, meşə sahələrində tonqalların qalanması qadağandır;
- elektrik mənşəli yanğınların qarşısının alınması üçün evlərdə və iş yerlərində elektrik şəbəkəsi çox yüklənməməli, elektrik qurğularının və mühafizə vasitələrinin texniki vəziyyəti yoxlanılmalı, profilaktik sınaqlar keçirilərək aşkar edilmiş qüsurların təmir olunması təmin edilməlidir”.

# Zaur Əliyevin “kreslosu laxlayır”

## İcbari Tibbi Sığorta Fondunda ciddi nöqsanlar aşkarlandı - Bundan sonra nə olacaq?

***Hesablama Palatası İcbari Tibbi Sığorta Fondunun 2023-2024-cü illərdəki gəlir və xərclərinin icrasının, eləcə də sərbəst vəsaitinin idarə olunmasının hüquqi aktların tələblərinə uyğunluğunun qiymətləndirilməsi məqsədi daşıyan kənar dövlət maliyyə nəzarəti tədbiri həyata keçirib. Audit obyektləri kimi Fondun vəsaitlərini idarə edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, eləcə də, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində olan tibb müəssisələrinin təchizatı və təmiri və s. istiqamətdə tədbirləri həyata keçirən İnnovasiya və Təchizat Mərkəzi müəyyən edilib.Nəticədə ciddi nöqsanlar aşkarlanıb.***

Öncə bu nöqsanlardan bəzilərinə göz ataq. Məsələn: auditlə dövlət büdcəsindən əhalinin sığortalanmasına ayrılan vəsaitlərin proqnozlaşdırılması zamanı əhali sayının rəsmi statistik məlumatlarla kiçik fərqlərlə uyğunluq təşkil etmədiyi müəyyən edilib. Həmçinin, eyni kateqoriyalı vətəndaşlara münasibətdə bir neçə mənbə hesabına tibbi xidmətlərin (sığortanın) nəzərdə tutulması bu sahədə əsaslı yanaşmaların tətbiqinə ehtiyac olduğunu vurğulamaq imkanı verir. Eləcə də, icbari tibbi sığorta haqqının adambaşına düşən məbləğinin məhz hansı xərcləri əhatə etməklə müəyyənləşdirilməsi mexanizminin hər hansı hüquqi aktla və ya metodoloji sənədlə əsaslandırılması ilə bağlı audit çərçivəsində məlumat təqdim edilməyib.

Və ya: məlumatların təhlili göstərir ki, gəlirlərdə olduğu kimi, xərclərdə də əvvəlki il üzrə icra meyillərinin nəzərə alınması proqnozların daha çox müəyyənləşdirilməsi ilə xərclərin çox nəzərdə tutulmasına, bununla da icra səviyyəsinin aşağı olmasına şərait yaranıb. Belə ki, hesabatlarda 2023-2024-cü illər üçün 2 milyon 393,2 min manat və 2 milyon 850,3 min manat xərc məbləğinə münasibətdə 81,1 % və 78,5 % vəsaitin icra edilməsi göstərilib. Bundan başqa, toplanmış audit sübutları göstərir ki, Agentlik hesabat illərində icra edilmiş vəsait üzrə hesabatlılığı yalnız həmin ildə müəyyənləşdirilmiş xərc istiqamətləri üzrə icraları əhatə edib. Başqa sözlə, həm 2023-cü, həm də 2024-cü ildə əvvəlki illərdən qalmış öhdəliklərin icrasına vəsait yönəldilsə də, hesabatlara həmin məbləğlər tam daxil edilməyib.

Eyni zamanda, “Tibbi sığorta haqqında” qanunda idarəetmə xərclərinin təsbit olunmaması, saxlanma xarakterli başqa xərclərin ayrıca sətirlə Fondun büdcəsi haqqında müvafiq hüquqi aktlara daxil edilməsi, TƏBİB-ə münasibətdə saxlanma xərclərinin yuxarı həddinin tənzimlənməməsi və bu qurumun yaratdığı hüquqi şəxslərin sayında müşahidə olunan artım cəmi xərclərdə inzibati xarakterli xərclərin payının yüksəlməsinə təsir göstərib. Eləcə də, hüquqi aktlarda bəzi tənzimləmələr üzrə boşluqların, həmçinin həmin xərclərin artımına səbəb olan istiqamətlərə aid uyğunsuzluqların olduğu müəyyənləşdirilib.

Bunlar Hesablama Palatasının aşkarladığı ciddi nöqsanların yalnız bir hissəsidir. Əslində bu nöqsanların ortaya çıxması təəccüblü deyil. Məsələ burasındadır ki, İcbari Tibbi Sığorta Fondunun vəsaitlərini icra edən və Zaur Əliyevin rəhbəri olduğu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyəti medianın, bir sıra ekspertlərin və deputatların tənqid hədəfində idi. Bu sırada xüsusilə keçirilən tenderlərlə bağlı şübhəli məqamlar diqqət çəkir.

Maraqlıdır ki, may ayında Zaur Əliyevin adı məhz müəmmalı tenderlərlə gündəmə gəlmişdi. Bildirilirdi ki, icbari tibbi sığortanın ölkə üzrə tətbiqindən 4 il zaman keçir. Vətəndaşların səhiyyə ilə bağlı maliyyə yükünü azaltmaq məqsədi daşıyan bu xidmət ötən müddətdə büdcəyə milyonlara başa gəlməkdədir. Bunun üçün İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin tenderlərinə nəzər salmaq kifayətdir. “Şirkətlərlə milyonlarla manat dəyərində müqavilələr imzalanıb. Lakin xidmətin keyfiyyəti, əlçatanlığı hələ də aşağıdır. Səbəblər isə müxtəlifdir. Onların arasında şəffaflıqla bağlı nüanslar da var” - “Teleqraf.com” saytı yazmışdı. Saytın araşdırmasından belə aydınlaşırdı ki, agentliyin keçiridiyi tenderlər üzrə bağlanan müqavilələr mütəmadi olaraq müsabiqələrdə eyni şirkətlərin seçildiyini deməyə əsas verir.

Məsələn, tibbi ləvazimatların satın alınmasına xərclənən milyonlarla bağlı məlum olub ki, həmin yöndə müqavilələrin dəyərləri təzadlıdır. Ötən il tibb müəssisələri üçün dərman vasitələrinin satın alınması məqsədilə “Referans Pharmaceuticals” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə 15.526.795,63, “Avromed Company” Qapalı Səhmdar Cəmiyyəti ilə 6.844.583,69, “Azəri Med” Qapalı Səhmdar Cəmiyyəti ilə 4.524.565,54 manatlıq müqavilə imzalanıb.

2024-cü il ərzində angioqrafiya zamanı istifadə olunan tibbi ləvazimatların satın alınması üçün “Medsol” Məhdud Məsuliyyətli Cəmiyyətə 6.988.700,71, “Besan” Məhdud Məsuliyyətli Cəmiyyətə isə 3.851.874 manat ödənilib. “Paşa-K” Firması ilə eyni xidmət üzə 134.938,81, “Arash Medical Company” ilə 339.747,39, “Kripto Lab” ilə 65.806,12, “Rinara Pharma” ilə 774.767,54 manat dəyərində müqavilə imzalanıb. Satınalmaların başlama tarixi 2023-cü ilin dekabrın 25-dən 2024-cü ilin 25 dekabrına qədərdir. Bütün bu müqavilələr üzrə tenderlərin nəticələri eyni gündə - yanvarın 9-u 2024-cü ildə elan edilib. Adları çəkilən şirkətlər illərdir Agentliyin, eləcə də Səhiyyə Nazirliyinin tenderlərinin qalibidirlər.

Və ya: ilərdir ”Garant Plus” Məhdud Məsuliyyətli Cəmiyyət Zaur Əliyevin rəhbərlik etdiyi agentliyin tenderlərində bir qayda olaraq qalib elan edilir. Məsələn, ötən il göz əməliyyatlarının aparılması üçün tibbi təyinatlı vasitələrin satın alınması üçün ”Garant Plus” Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN: 1304411071) 1.500.000,01 manat ödənib. Ardınca şirkətlə iki müqavilə imzalanıb. “Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair Dövlət Proqramı”nın icrası məqsədilə tibbi sərfiyyat və ləvazimat mallarının satın alınması üçün şirkətə 41.505,2 manat, uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı üzrə tibbi avadanlıqların və ləvazimatların satın alınması üçün 20.355 manat ödənib. Onu da bildirək ki, şirkətin rəsmi veb səhfəsi belə yoxdur.



Xatırladaq ki, 2024-cü ildə Hesablama Palatası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində həyata keçirilmiş dövlət satınalmalarının hüquqi aktlara uyğunluğunun auditini aparmışdı. Sənəddə bağlanılan satınalma müqavilələri üzrə müxtəlif hallarda uyğunsuzluqların, bir-birini təkzib edən maddələrin olduğu əksini tapırdı. Eləcə də bildirilirdi ki, dövlət satınalmalarını tənzimləyən qanunvericiliyin tələblərinə riayət edilməyərək bir mənbədən satınalma metodu ilə malların (işlərin və xidmətlərin) satın alınması zamanı ehtimal olunan qiymətin hesablanmaması bəzi hallarda bağlanılan və icra olunan satınalma müqavilələri üzrə icarəyə götürülmüş obyektlər üzrə icarə qiymətləri mövcud bazar qiymətindən yüksək olur.

Dərman və tibbi təyinatlı vasitələrin satın alınması prosesində bəzi hallarda ayrı-ayrı malların vahidinin ehtimal olunan qiyməti düzgün müəyyən edilmir. Eyni adlı dərman və tibbi təyinatlı vasitələrin vahidi üzrə alış qiymətlərinin fərqli olması əlavə vəsait xərcinə gətirib çıxarır. Satınalma üzrə qalib müəssisələr tərəfindən bəzi hallarda müqavilə öhdəlikləri vaxtında yerinə yetirilmir.

Hesablama Palatasının İcbari Tibbi Sığorta Fondunda apardığı və yazının əvvəlində bəhs etdiyimiz son auditin nəticələri Z.Əliyevin rəhbərlik etdiyi Agentlikdə şəffaflıq və peşəkarlıq baxımından ciddi problemlərin olduğunu ortaya qoyur. Bu isə Agentliyin rəhbərliyində dəyişiklik ola biləcəyinə dair bir müddətdir dolaşan iddiaların reallaşma ehtimalının yüksək olduğunu söyləməyə əsas verir.

***Sənan Mirzə***

28_27 IYUl-QARA.qxd 7/31/2025 9:34 PM Page 4



# Kəskin istilər bizi gözləyir - Aylıq proqnoz açıqlandı



***Bu ilin avqust ayında havanın orta aylıq temperaturunun iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər yüksək olacağı gözlənilir. Aylıq yağıntının miqdarının əsasən iqlim normasına yaxın olacağı ehtimal olunur.***

"Unikal" xəbər verir ki, bununla bağlı Milli Hidrometeorologiya Xidməti məlumat yayıb. Birinci ongünlükdə ölkə ərazisində hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz saatlarında bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Cənub-şərq küləyi üstünlük təşkil edəcək.

Bakıda və Abşeron yarımadasında havanın orta aylıq temperaturunun 26-28 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Gecələr havanın temperaturu 22-27 dərəcə, gündüzlər 29-34 dərəcə, bəzi günlərdə 38-40 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 6-8 mm).

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında havanın orta aylıq temperaturu 26-29 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Gecələr havanın temperaturu 23-28 dərəcə, gündüzlər 30-35 dərəcə, bəzi günlərdə 38-41 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 6-10 mm).

Xankəndi, Şuşa, Goranboy, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında havanın orta aylıq temperaturunun 18-23 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Gecələr havanın temperaturu 15-20 dərəcə, gündüzlər 27-32 dərəcə, bəzi günlərdə 35-37 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 26-55 mm).

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında havanın orta aylıq temperaturunun 20-23 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Gecələr havanın temperaturu 13-18 dərəcə, gündüzlər 25-30 dərəcə, bəzi günlərdə 33-37 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 15-37 mm).

Qazax, Gəncə, Ağstafa, Şəmkir, Tovuz, Ceyrançöl, Tərtər, Füzuli rayonlarında havanın orta aylıq temperaturunun 25-27 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Gecələr havanın temperaturu 21-26 dərəcə, gündüzlər 29-34 dərəcə, bəzi günlərində 37-41 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 19-27 mm).

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın orta aylıq temperaturunun 23-26 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Gecələr havanın temperaturu 19-24 dərəcə, gündüzlər 28-33 dərəcə, bəzi günlərdə 35-38 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 27-116 mm).

Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Mingəçevir, Beyləqan, Sabirabad, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında havanın orta aylıq temperaturunun 27-29 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Gecələr havanın temperaturu 22-27 dərəcə, gündüzlər 30-35 dərəcə, bəzi günlərdə 38-41 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 6-22 mm).

Masallı, Yardımlı, Lerik, Lənkəran, Biləsuvar, Astara, Cəlilabad rayonlarında havanın orta aylıq temperaturunun 23-27 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxın və bir qədər yüksəkdir. Gecələr havanın temperaturu 20-25 dərəcə, gündüzlər 30-35 dərəcə, bəzi günlərdə 37-39 dərəcə isti gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 13-83 mm).

# Emin Əmrullayev Avropa çempionu olan tələbələrlə görüşdü

***Elm və təhsil naziri Emin Əmrullayev 14-cü Futzal üzrə Universitetlərarası Avropa Çempionatının qalibi olan Azərbaycan İdman Akademiyasının komandası ilə görüşüb.***

"Unikal" xəbər verir ki, nazir tələbə-idmançıları əldə etdikləri qələbə münasibətilə təbrik edib, onların bu uğurunu həm ali təhsilin idman sahəsində beynəlxalq səviyyədə tanıdılması, həm də ölkəmizin gənclərinin potensialının nümayişi baxımından yüksək qiymətləndirib. Emin Əmrullayev bildirib ki, tələbə və gənclərin həm təhsil, həm də idman sahəsində fəal iştirakı, mütəmadi təşkil edilən liqa və turnirlərdə formalaşan sağlam rəqabət mühiti onların inkişafında mühüm rol oynayır. Nazir tələbə futbolçulara bundan sonra da həm təhsildə, həm də idmanda uğurlar arzulayıb.

Görüşdə çıxış edən elm və təhsil nazirinin müavini, Azərbaycan Tələbə Futbol Federasiyasının prezidenti Firudin Qurbanov bildirib ki, 2023-cü ildə təsis edilmiş Azərbaycan Tələbə Liqası tələbələr arasında yarışların keçirilməsinə, idmanda istedadlı gənclərin üzə çıxarılmasına və onların beynəlxalq arenalara hazırlanmasına böyük töhfə verib. Nazir müavini vurğulayıb ki, bu yarışlar sayəsində formalaşan tələbə komandamız bu gün Avropa çempionu olaraq ölkəmizin təhsil və idman həyatında tarix yazıb. Nazir müavini tələbələrin qələbəsini Azərbaycanın ali təhsil sisteminin nailiyyəti kimi qiymətləndirib, bütün komanda üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.




Tədbirdə çıxış edən komanda üzvləri də öz növbələrində göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Görüşün sonunda komandanın adından elm və təhsil nazirinə xatirə futbol köynəyi təqdim olunub.

Xatırladaq ki, Azərbaycan İdman Akademiyasının komandası 17-25 iyul tarixində Xorvatiyanın Zaqreb şəhərində keçirilən 14-cü Universitetlərarası Avropa çempionatında ölkəmizi təmsil edib.

Komandamız qrup mərhələsində İsveçrə komandasına (5:1), Xorvatiya komandasına (6:2) qalib gələrək 1/4 finalda Fransa komandası üzərində 5:4, yarımfinalda İspaniya komandasına 5:1, finalda İspaniyanın Valensiya Universitetinin komandasına 7:2 hesabı ilə qələbə qazanaraq Avropa çempionu adına layiq görülüb.

Komandanın Avropa Çempionatında iştirakı Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqının və Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyasının, Azərbaycan İdman Akademiyasının dəstəyilə həyata keçirilib.

# Azərbaycanlı qazi jurnalistlər Türkiyə Qazilər Vəqfində

***Qazi jurnalistlərimiz Türkiyə səfəri çərçivəsində bu gün Türkiyə Qazilər və Şəhid Aiələri Vəqfinin İstanbul şöbəsini ziyarət ediblər.***

"Unikal" xəbər verir ki, qonaqları Vəqfin İdarə Heyətinin üzvü, İstanbul şöbəsinin sədri, qazi Ferhat Koçak qarşılayıb.

Əvvəlcə Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Birliyinin sədri Bəhruz Məmmədzadə ötən gün şəhidlik zirvəsinə ucalan Türkiyə ordusu mənsubu - baş çavuş Servet Ökkeş Çakırın ailəsinə və yaxınlarına heyət adından başsağlığı verib.

Vətən uğrunda canlarından keçən bütün şəhidlərin əziz xatirəsi yad olunub. Görüşdə iki ölkə arasında qardaşlıq münasibətlərindən də söz açılıb. Bəhruz Məmmədzadə Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu bildirib: "Türkiyənin sevinci sevincimiz, kədəri kədərimizdir. Biz iki millət bir dövlətik. Ulu öndərlərimizin bu kəlamları bizim gələcəyimizin xəritəsidir. Biz hər zaman, hər məsələdə qardaşlarımızın yanındayıq. Bugünkü görüşün bizim üçün çox böyük mənəvi yükü var".

Ferhat Koçak da öz növbəsində ölkələrimiz arasındakı münasibətləri, əlaqələri yüksək qiymətləndirib, eyni zamanda, qazi jurnalistlərlə görüşdən məmnunluğunu ifadə edib: "Azərbaycan hər zaman yanımızda olub və olacaq. Biz Azərbaycanı ikinci vətənimiz sayırıq. Türkiyə olaraq biz də həmişə qardaşlarımızın yanındayıq. Vətən uğrunda döyüşən qazi jurnalistlərlə görüşdən çox şadıq. Bu cür görüşlərin tez-tez olmasını arzu edirik".

Daha sonra Türkiyə Qazilər və Şəhid ailələri Vəqfi ilə Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Biriliyi arasında münasibətlərin daha da dərinləşməsi, gələcəkdə daha geniş heyətlə görüşlərin olması perspektivi müzakirə edilib.

Xatırladaq ki, qazi jurnalistlərin Türkiyəyə səfəri MediaTürk TV-nin təşəbbüsü, TİKA Azərbaycan-ın koordinatorluğu, Türkiyə Media İş Sendikası və Xüsusi Təyinatlıların Qaziləri, Şəhid Ailələri və Veteranları İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycan Milli Mətbuatının 150 illiyi münasibətilə təşkil olunub.

# Şəhid Cavanşir Rüstəmova həsr olunan "Əbədiyyat yolçusu" kitabı nəşr olundu

***Birinci Qarabağ müharibəsində şəhid olan Cavanşir Rüstəmova həsr olunan "Əbədiyyat yolçusu" kitabı nəşr olunub.***

"Unikal" xəbər verir ki, kitabın müəllifi Mürvət Məcnunovdur.

Belə ki, "Əbədiyyat yolçusu" kitabı Birinci Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda rəşadətli döyüş yolu keçən şəhid Cavanşir Rüstəmovun qəhrəmanlıq dünyası və ömür-gün yolundan bəhs edir.

Qeyd edək ki, şəhid Cavanşir Rüstəmov Qubadlı rayon Xanlıq kənd orta məktəbində müəllim, sonradan Qubadlı rayon icra Hakimiyyətinin ərazi-idarəetmə şöbəsində baş məsləhətçi vəzifəsində çalışıb.

# İlham Əliyev QHT-lərlə bağlı dəyişikliyi təsdiqlədi



***Qeyri-hökumət təşkilatları tərəfindən xidmətlərin göstərilməsi və işlərin görülməsinə dair mövcud tələblər təkmilləşdirilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" haqqında qanunlara dəyişikliyi təsdiq edib.

Sənədə əsasən, hazırki tələblərə əsasən qeyri-hökumət təşkilatı tərəfindən qüvvədə olan Qanunun 24.0.3-cü maddəsində nəzərdə tutulmuş xidmətlərin (malların satışından, xidmətlər göstərilməsindən, işlərin görülməsindən daxilolmalar) göstərilməsi və işlərin görülməsi müqavilə əsasında həyata keçirilir və xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələr müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınır.

Yeni dəyişikliyə görə qeydiyyata alınmamış xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrdən irəli gələrək bank əməliyyatlarının və hər hansı digər əməliyyatların aparılması məhdudlaşdırılır ki, bu da yuxarıda qeyd edildiyi kimi, sadalanan xidmətlərdə şəffaflığın təmin edilməsi məqsədi daşıyır.

Qeyd edilib ki, xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında qeydiyyata alınmamış müqavilə üzrə xidmətlər göstərən və ya işlər görən, yaxud bununla əlaqədar maliyyə vəsaiti və (və ya) başqa maddi formada vəsait qəbul edilməsi müvafiq qaydada inzibati məsuliyyətə səbəb olur.

# Bu yolda hərəkət istiqaməti müvəqqəti dəyişdiriləcək - Sürücülərin nəzərinə!

***"M2 Bakı-Ələt-Qazax-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 15, 69, 97.7 və 117-ci kilometrlik hissələrində aparılacaq təmir işləri ilə əlaqədar olaraq, hərəkət istiqaməti mərhələli şəkildə müvəqqəti dəyişdiriləcək".***

Bu barədə "Unikal"a Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi məlumat yayıb.

Bildirilir ki, müvəqqəti dəyişiklik 1 avqust tarixindən başlayaraq təmir işləri başa çatanadək qüvvədə olacaq. Tikinti aparılan ərazidə nəqliyyatın hərəkəti əks istiqamət üzrə ikitərəfli təşkil ediləcək.

"Sürücülərdən aparılan işlərə anlayışla yanaşmaları, qeyd olunan ərazilərdə hərəkət zamanı diqqətli olmaları, müvəqqəti yol nişanlarının tələblərinə və yol hərəkəti qaydalarına ciddi şəkildə əməl etmələri xahiş olunur", - məlumatda qeyd olunub.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Nazir müavini İran səfiri ilə görüşdü

***Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev İranın Bakıdakı səfiri Müctəba Dəmirçilu ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə İranın Azərbaycandakı səfirliyi məlumat yayıb.

Bildirilib ki, görüş zamanı iki ölkə arasında əməkdaşlığın inkişafı müzakirə olunub.

Həmçinin regional və beynəlxalq forumlarda əməkdaşlıq məsələləri ilə bağlı məsləhətləşmələr aparılıb. Tərəflər bir çox beynəlxalq məsələlərdə iki ölkənin mövqelərinin ortaq olduğunu qeyd ediblər.

# DTX-nın saxladığı Fransa şirkətinin vitse-prezidenti məhkəmədə ifadə verib

***Külli miqdarda rüşvət alma və digər cinayət əməllərində ittiham olunan Fransanın "SAUR" şirkətinin vitse-prezidenti Anass Derrazın barəsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə məhkəmənin növbəti prosesi keçirilib.***



Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Fərid Namazovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxs ifadə verib. O, Azərbaycana işgüzar səfərə gəldiyini bildirib: "Azərbaycanın su infrastrukturuna yatırım etməyə gəlmişdim. Ölkəyə gəlməyimin ikinci günündə DTX-nin inzibati binasında ifadə verdim. Mən passiv korrupsiya və cinayət yolu ilə əldə olunmuş əmlakı leqallaşdırmada ittirakda günahlandırılıram. Baş vermiş hadisə ilə bağlı deyə bilərəm ki, 2022-ci ilin oktyabr ayında Fərhad Əhmədovun ofisi tərəfindən mənə müraciət olunub. Onun yoldaşından boşanması ilə əlaqədar London Məhkəməsi tərəfindən əmlaklarının dondurulmasına qərar verilmişdi. Ona görə Fərhad Əhmədov 500 milyon dəyərində yaxtasının illik xərcinin 16 milyon dollardan hesablanması ilə bağlı və digər hüquqi məsələləri həll etmək üçün mənə müraciət edib. Mənim konsultant olaraq fəaliyyətimi eşidib mənimlə əlaqəyə keçib. Həmin dövrdə mən "Viola" şirkəti ilə bir neçə milyardlıq layihələri idarə edirdim. Hamı məni çox çətin məsələləri düzgün şəkildə idarə edə bilmə bacarığıma görə tanıyırdı. Fərhad Əhmədovla müqavilələr imzalaşmışdıq, mən onlara hüquqi müstəvidə yardım edəcəkdim. Fərhad Əhmədov mənə işlərini görməyim üçün etibarnamə də təqdim etmişdi. Xahiş edirəm onu iş materiallarına da əlavə edəsiniz".

Məhkəmədə həmin sənədin iş materiallarına əlavə olunduğu bildirilib.

A.Derraz ifadəsinin davamında bildirib ki, həmin etibarnaməyə əsasən F.Əhmədovun "Luna" adlı yaxtası ilə bağlı məsələlərdə strateji məsləhətçisi olub: "Mən strateji məsləhətçi və komandaya liderlik göstərərək, F.Əhmədov adından yaxta ilə bağlı prosedurları həyata keçirmişəm. Vəzifəm hüquqi prosedurlara nəzarət idi".

A.Derraz onu da deyib ki, ittihamlara tək-tək cavab verməklə istəyir: "Öncədən qeyd etdiyim avansın məbləği 200 min dollar idi. Əgər dondurmanı aradan qaldırmağı bacarsaydım, o mənə 2 milyon dollar ödəməli idi. Bu rəqəmi 500 milyon dollarlıq aktivlə müqayisə edirdik. Tez bir zamanda problemi aradan qaldırmağa çalışırdıq. Çünki texniki səbəblərə görə, yaxtanın dəyəri hər gün düşürdü. Müqavilə imzalanarkən Benalla isə həmin vaxt artıq Fransa Prezidenti Makronun administrasiyasından qovulmuşdu və Fransada Benalla haqda araşdırma aparılırdı. Mənə Benalla haqda Fərhad Əhmədov bildirmişdi ki, yoldaşı ilə bağlı məsələlərə Benalla dəstək olub və işində professionaldı, Dubayda da yaxşı əlaqələri var. F.Əhmədov da bunu ifadəsində göstərib. Mən də sadəcə, Fərhad Əhmədovla çalışmış, onlara yardım etmişəm, məlumat vermişəm".

İş materiallarına əlavə olunmuş sənədlərin ingilis dilindən tərcümə olunması üçün proses təxirə salınıb.

Növbəti proses sentyabrın 11-nə təyin edilib.

# Qarabağ və Şərqi Zəngəzurun dirçəlişinə həsr olunmuş sənədli film hazırlanır

***"Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyi Qarabağ və Şərqi Zəngəzurun dirçəlişinə həsr olunmuş sənədli film layihəsinin icrasına başlayıb.***

Layihənin əsas məqsədi işğaldan azad edilmiş ərazilərdə - Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işlərini, eləcə də bu torpaqlara "Böyük Qayıdış"ı əks etdirən sənədli film istehsal etməkdir.

Filmdə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfər, onun nəticəsində başlanan genişmiqyaslı yenidənqurma işləri və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı yaradıcı şəkildə təqdim olunacaq. Eyni zamanda, ekran əsərində Vətən müharibəsinin beşinci ildönümündə Azərbaycan xalqının keçirdiyi qürur və sevinc hissləri də əks olunacaq.

Layihə çərçivəsində indiyədək Ağdam, Xocalı, Şuşa və Xankəndi şəhərlərində çəkilişlər aparılıb. Yaxın günlərdə Cəbrayıl, Füzuli, Laçın, Kəlbəcər və Zəngilan rayonlarında da çəkilişlərin həyata keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, layihə Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2025-ci il üçün elan etdiyi orta qrant müsabiqəsinin qalibi olub.




# Rəşad Nəbiyev ABŞ-ın müvəqqəti işlər vəkili ilə Orta Dəhlizi müzakirə etdi



Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Emi Karlon ilə görüşüb.

Bu barədə "Unikal"a Nazirlikdən bildirilib.

Görüşdə nəqliyyat, Orta Dəhlizin inkişafı və bu istiqamətdə daşımaların perspektivləri müzakirə edilib.

Eyni zamanda telekommunikasiya, kibertəhlükəsizlik, süni intellekt, kadr potensialının artırılması və ABŞ şirkətləri ilə gələcək əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılıb.

# "Bu, yüzlərlə gəncin təhsildən imtina etməsinə səbəb olur" - ADPU-dakı təhsil haqqı artımına reaksiya

***Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) təhsil haqqı artırılıb.***

”Unikal” xəbər verir ki, bununla bağlı ADPU-nun rektoru Cəfər Cəfərov əmr imzalayıb. Məsələ ilə bağlı universitetin İctimaiyyətlə əlaqələr və marketinq şöbəsinin müdiri Taleh Mirzəyev bildirib ki, yeni təhsil haqqı yalnız cari ildən etibarən universitetə qəbul olunacaq birinci kurs bakalavr və magistratura tələbələrinə şamil edilir: ”Hazırda ADPU-da təhsil alan yuxarı kurs tələbələri təhsil haqqını əvvəlki məbləğlər əsasında ödəməyə davam edəcəklər. 2025/2026-cı tədris ilindən etibarən Azərbaycan Dövlət Pedaqoji Universitetində bakalavriat və magistratura səviyyələrində illik təhsil haqqı 2 300 manatdan 2 400 manata artırılıb. Magistratura səviyyəsində MBA proqramının ixtisaslaşmaları üzrə isə təhsil haqqı 2 500 manatdan 2 700 manata qaldırılıb”.




Təhsil ekperti Kamran Əsədov ”Unikal”a açıqlamasında diqqətə çatdırıb ki, Azərbaycanda ali təhsil müəssisələrində təhsil haqqının yenidən artırılması məsələsi hər dəfə gündəmə gələndə eyni problemləri üzə çıxarır: ”Bu artımın hüquqi əsası varmı, sosial nəticələri necədir və ən əsası, vətəndaşın cibindən çıxan əlavə vəsait doğrudanmı təhsilin keyfiyyətinə çevrilir, yoxsa yalnız büdcə boşluqlarını doldurmaq üçün istifadə olunur? 2024-2025-ci tədris ili üçün bəzi universitetlərin təhsil haqqını 100-200 manat artırması ictimaiyyətdə ciddi narazılıq yaradıb. Dövlət Statistika Komitəsinin məlumatına görə, hazırda ölkədə ödənişli əsaslarla təhsil alan tələbələrin orta illik haqqı 1800-4500 manat arasında dəyişir, bəzi ixtisaslarda isə 6000 manatı keçir. Eyni zamanda ölkədə orta aylıq əməkhaqqı 950-1000 manat səviyyəsindədir və bu, təhsil haqqının minimum əməkhaqqı və ailə gəlirlərinə nisbətdə son dərəcə yüksək olduğunu göstərir. Bu, sosial bərabərsizliyi dərinləşdirir, yüzlərlə gəncin təhsildən imtina etməsinə səbəb olur və dövlətin bərabər təhsil imkanları təmin etmək öhdəliyini faktiki olaraq pozur.

Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununun 13.1-ci maddəsində açıq şəkildə yazılır ki, dövlət ali təhsil müəssisələrində təhsil ödənişləri təhsil proqramlarının həyata keçirilməsi üçün əsas maliyyə mənbələrindən biridir və bu vəsait təhsil keyfiyyətinin yüksəldilməsinə yönəldilməlidir. Həmçinin eyni qanunun 5-ci maddəsində bərabər və ədalətli təhsil imkanlarının təmin olunması dövlətin vəzifəsi kimi göstərilir. Lakin təhsil haqqı artırıldıqda bu artımın nəyə görə həyata keçirildiyi, toplanan əlavə vəsaitin hansı sahələrə yönəldildiyi barədə ictimaiyyətə açıq hesabat verilmir. Hesablama Palatasının 2023-cü ildə ali məktəblərdə apardığı auditlər göstərib ki, təhsil haqqı gəlirlərinin yalnız təxminən 25-30 faizi tədris keyfiyyətinə - laboratoriyaların yenilənməsi, müasir tədris materiallarının alınması, müəllimlərin ixtisasartırması və beynəlxalq proqramların genişləndirilməsinə yönəldilib. Qalan hissə əsasən inzibati xərclərə, təsərrüfat işlərinə və idarəetmə aparatının saxlanmasına sərf olunub. Bu isə tələbələrdən yığılan əlavə ödənişlərin təhsilin məzmununda hiss olunacaq dəyişiklik yaratmadığını göstərir.

Elm və Təhsil Nazirliyi bu prosesdə faktiki olaraq yalnız müşahidəçi mövqedədir. Nazirlik universitetlərin qiymət artımı ilə bağlı nə sosial təsir təhlili aparır, nə də qanunla tələb olunan şəffaflığı təmin edir. Təhsil müəssisələri tələbələri olduqca məhdud seçim qarşısında qoyur: ya ödənişli təhsil üçün borca girib davam etmək, ya da təhsildən imtina etmək. Nazirliyin indiyə qədər təqdim etdiyi heç bir strateji sənəddə təhsil haqqının sosial ədalət prinsipi əsasında tənzimlənməsi, aztəminatlı ailələrin qorunması, tələbələrin borclanma yükünün azaldılması ilə bağlı konkret proqram yoxdur. Proqnozlaşdırma və planlaşdırma aparılmadığı üçün universitetlər qiymətləri özbaşına müəyyən edir, tələbələrin hüquqlarını müdafiə edən mexanizm isə yoxdur.

Dünya təcrübəsində təhsil haqqı artımı daha balanslaşdırılmış və şəffaf şəkildə tənzimlənir. ABŞ, Böyük Britaniya və Kanadada universitetlər təhsil haqqını artırmazdan əvvəl tələbə şuraları ilə məsləhətləşir, dövlət inflyasiya göstəricilərinə uyğun limitlər təyin edir, universitetlər isə əlavə gəlirin hansı layihələrə xərclənəcəyini açıqlamaqla ictimai hesabat verir. Avropa İttifaqının bir çox ölkəsində - Finlandiya, Almaniya, Norveçdə isə dövlət ali təhsili ya ödənişsiz edir, ya da minimal ödənişlə təmin edir, universitetlərin maliyyələşməsini əsasən büdcədən qarşılayır və beləliklə təhsilə çıxışda sosial bərabərliyi qoruyur. Azərbaycanda isə təhsil haqqı artımı yalnız rəqəmlərlə elan olunur, keyfiyyət artımı barədə verilən vədlər real nəticə ilə təsdiqlənmir. Məsələn, son 5 ildə ali məktəblərdə qiymətlər orta hesabla 20-30 faiz bahalaşsa da, beynəlxalq reytinqlərdə universitetlərin mövqeyi dəyişməyib. QS World University Rankings 2024 hesabatında Azərbaycan universitetləri yenə də 700-cü yerlərdən yuxarı qalxmayıb, elmi məqalə sayı və keyfiyyət göstəricilərində irəliləyiş olmayıb.

Müsbət tərəf yalnız o halda mümkün olar ki, qiymət artımı real və şəffaf şəkildə təhsil keyfiyyətinə çevrilə bilsin. Əlavə vəsaitlə müasir laboratoriyalar yaradılmalı, xarici professorların cəlb olunması, tələbələrin beynəlxalq mübadilə proqramlarında iştirakına dəstək, müəllimlərin mütəmadi ixtisasartırması təmin edilməlidir. Lakin bu gün vəziyyət tam əksinədir: qiymətlər artır, amma tələbə auditoriyasında şərait dəyişmir, müəllimlərin maaşı çox zaman olduğu kimi qalır, müasir tədris mühiti yaradılmır. Bu isə təhsili kommersiya xidmətinə çevirir, sosial ədaləti pozur və cəmiyyətin təhsilə olan etimadını sarsıdır.

Bu vəziyyət dəyişməsə, gələcəkdə təhsil daha çox imtiyazlı təbəqənin əldə edə bildiyi bir xidmətə çevriləcək, regionlardan gələn və aztəminatlı ailələrin övladları ali təhsil almaq imkanını itirəcək. Elm və Təhsil Nazirliyi təhsil haqqı siyasətinə nəzarəti öz üzərinə götürməli, universitetləri ictimai hesabatlılığa məcbur etməli, qiymət artımı yalnız konkret keyfiyyət göstəriciləri ilə əlaqələndirilməlidir. Əks halda, hər il qiymət artımı davam edəcək, amma bu artım təhsilin keyfiyyətinə yox, yalnız bürokratik aparatın xərclərinə işləyəcək və ali təhsil sosial bərabərsizliyin ən böyük mənbəyinə çevriləcək”.

*Zaurə Əmirova*



## Hikmət Hacıyev Ukrayna səfiri ilə görüşdü

***Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə Ukraynanın Azərbaycandakı səfiri Yuri Husyev arasında görüş olub.***

”Unikal” xəbər verir ki, bununla bağlı səfir Yuri Husyev özünün X hesabında paylaşım edib.

“Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevlə məhsuldar görüşümüz oldu. Ölkələrimiz arasında strateji əməkdaşlığı dərinləşdirməyin yollarını müzakirə etdik. Azərbaycanın Ukrayna ilə həmrəyliyi və davamlı dəstəyi üçün minnətdaram”, - deyə səfir qeyd edib.

## "Günahkar Azərbaycan yox, bizik" - Pezeşkian

***”Azərbaycan bizim xalqımızdır, doğmalarımızdır!”. ”Unikal” xəbər verir ki, bu fikri İran prezidenti Məsud Pezeşkian deyib.***



O, Zəncan vilayətinə səfəri zamanı Azərbaycan Respublikasına qarşı keçmiş yanaşmaları tənqid edib və vurğulayıb ki, Tehran bu ölkə ilə dostluq əlaqələrinin qurulmasında liderlik etməlidir: ”Bəziləri Azərbaycanın İranın düşməni olduğunu deyirdilər, amma bu belə deyil, Azərbaycan bizim qohumumuzdur.

Necə olur ki, İsrail Azərbaycanla münasibət qura bilir, amma biz edə bilmirik? Görməliyik ki, problem haradadır ki, sərhədin o tayındakı qardaş və bacılarımızla sağlam və mehriban münasibətlər qura bilməmişik. Günahkar Azərbaycan yox, bizik”.

*Ağarza Elçinoğlu*

## MİQ üzrə vakansiya seçiminin başlanacağı tarix məlum oldu

***6 avqust saat 11:00-dan etibarən müəllimlərin işə qəbulu üzrə müsabiqənin müddətsiz müqavilə ilə vakansiya seçimi mərhələsi həyata keçiriləcək.***

Bu barədə ”Unikal”a İnsan Resusları Mərkəzindən məlumat verilib.

Bildirilib ki, bütün fənlər üzrə test imtahanında ümumtəhsil proqramı üzrə minimum 34 bal və tədris metodikası üzrə minimum 6 bal olmaqla, ümumi 40 bal və daha yüksək nəticə göstərən namizədlər 11 avqust saat 11:00-dək şəxsi səhifələrinə daxil olaraq vakansiya seçimi edə biləcəklər. Məlumat üçün qeyd edək ki, namizədlər seçdiyi vakant yerə yerləşdikdən sonra həmin yerdən imtina etdiyi halda müsabiqənin növbəti vakansiya seçimlərində iştirakı təmin olunmayacaq.



# Daha bir direktorla bağlı araşdırma aparılacaq

***Paytaxtdakı 171 nömrəli tam orta məktəbin direktorunun müəllimlərə qarşı uyğunsuz davranışı və səs yazısı ilə bağlı Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən araşdırma aparılacaq.***

"Unikal" xəbər verir ki, bu barədə BŞTİ-dən "Azərbaycan müəllimi"nə məlumat verilib.

Bildirilib ki, hazırda məktəbin pedaqoji heyəti məzuniyyətdə olduğu üçün araşdırmanın məzuniyyət dövründən sonra aparılması nəzərdə tutulur.

Qeyd edilib ki, təhsil müəssisələrində hər hansı neqativ halların baş verməsi yolverilməzdir. Məktəblərdə sağlam işgüzar mühitin təmin olunması, təhsil müəssisələrinin fəaliyyətində səmərəliliyin artırılması əsas prioritetlərdəndir. Məktəbin və müəllimin fəaliyyətinə uyğun olmayan hallara qarşı qanunvericiliyin tələbləri çərçivəsində müvafiq tədbirlərin görülməsi diqqət mərkəzində saxlanılır.

# Növbəti köç karvanı Ağdamın Xıdırlı kəndinə çatdı

***Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, yenidən qurulan Ağdam rayonunun Xıdırlı kəndinə respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı yola salınıb.***

"Unikal" xəbər verir ki, bu mərhələdə Ağdam rayonunun Xıdırlı kəndinə 58 ailə - 225 nəfər köçürülüb.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda həyatlarını qurban vermiş şəhidlərimizə rəhmət diləyiblər.

Növbəti köç karvanı Ağdam rayonunun Xıdırlı kəndinə çatıb, açarların ailələlərə təhvil verilmə mərasimi keçirilib. Bu mərhələdə köçürülən 225 nəfərdən ibarət 58 ailəyə yeni tikilmiş fərdi yaşayış evlərinin açarları təqdim edilib.

Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və MəcburiKöçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda oraya köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə 50 mindən çox insan yaşayır.

# "Qəbul planı və ixtisas seçimi ilə bağlı köklü islahata ehtiyac var"

Kamran Əsədov: "Dövlət abituriyentləri yalnız balla deyil, gələcəkdə iş imkanları ilə bağlı düzgün istiqamətləndirməli, universitetlər ixtisas siyahılarını əmək bazarının real proqnozlarına uyğunlaşdırmalıdır"

***Təhsil eksperti Kamran Əsədov "Unikal"a müsahibə verib. O, abituriyentlərin ixtisas seçimi zamanı nələrə diqqət etməli olduğundan, ayrılan plan yerləri uğrunda mübarizənin necə olacağından, ali təhsil müəssisələrində müəllimlik ixtisaslarının sayının azaldılmasından və qarşıdakı illərdə hansı ixtisasların ləğv oluna biləcəyindən danışıb.***

***-Kamran müəllim, ali təhsil müəssisələrinə qəbul olmaq üçün ixtisas seçimi bütün ixtisas qrupları üzrə 2025-ci il avqustun 11-dən 19-na olan müddətdə aparılacaq. Abituriyentlər ixtisas seçimi zamanı nələrə diqqət etməlidir?***

- İxtisas seçimi zamanı abituriyentlərin ən çox buraxdığı səhv məlumatları araşdırmadan, təsadüfi seçim etmələridir. Azərbaycanda qəbul imtahanı nəticəsində əldə olunan bal hələ uğurlu gələcəyin təminatı deyil. Seçim zamanı təhsil müəssisəsinin keyfiyyəti, məzunlarının işlə təminat göstəriciləri, təhsil proqramlarının məzmunu, beynəlxalq əməkdaşlıq imkanları, təcrübə və təlim proqramlarının mövcudluğu nəzərə alınmalıdır. Təəssüf ki, Elm və Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi abituriyentlər üçün kifayət qədər maarifləndirici, real əmək bazarına əsaslanan peşə yönümlü xidməti təqdim etmir. Bu səbəbdən abituriyentlər, valideynlər bəzən ancaq "daha tanınmış" və ya "ən çox tələb olunan" kimi görünən ixtisasları yazır və sonradan işsizlik problemi ilə üzləşirlər. Bu vəziyyəti dəyişmək üçün informasiya bazası genişləndirilməli, universitetlər üzrə real nəticələr və məzunların məşğulluq göstəriciləri ictimaiyyətə açıq şəkildə təqdim olunmalıdır.

***-Siz paylaşımınızda qeyd etmisiniz ki, 2025-ci il üzrə 60 489 plan yeri ayrılıb, lakin bu yerlərə 126 928 nəfər sənəd verib. Yerlərin sayında əvvəlki qəbul planı ilə müqayisədə nə qədər fərq var və rəqabətin necə olacağını düşünürsüz?***

-2025-ci il üzrə ixtisas seçimi mərhələsi əvvəlki illərlə müqayisədə daha mürəkkəb və rəqabətli olacaq. Çünki təqdim edilən plan yerlərinin sayı ilə müraciət edənlərin sayı arasında kəskin fərq var. Dövlət İmtahan Mərkəzinin açıqladığı rəqəmlərə görə, 60 489 plan yerinə 126 928 nəfər sənəd verib. Bu, hər yerə təxminən iki namizədin düşdüyünü göstərir. Nəticə etibarilə rəqabətin yüksək olacağını, keçid ballarının bir çox ixtisaslarda əvvəlki illərə nisbətən artacağını proqnozlaşdırmaq mümkündür. 2024-cü ildə plan yerləri 59 min civarında idi və müraciət edənlərin sayı 118 min olmuşdu. Yəni, həm plan yerlərində, həm də müraciət edənlərin ümumi sayında təxminən 2-3 faiz artım olsa da, fərq yenə də çox böyükdür və yüksək ballı abituriyentlərin sayı bu rəqabəti daha da artıracaq.

***-Ali təhsil müəssisələrində müəllimlik ixtisaslarının sayı azaldılıb. Bu pedaqoji ixtisasların keçid ballarında artıma səbəb olacaq. Müəllimlik ixtisasını seçmək istəyənlərə nə tövsiyə edərdiniz?***

- Müəllimlik ixtisaslarının sayının azaldılması qəbul ballarına təsir göstərəcək. Son illərdə bu sahəyə marağın azalması, kişi müəllimlərin çatışmazlığı və regionlarda təhsilin keyfiyyətinin zəifləməsi fonunda, plan yerlərinin ixtisar edilməsi paradoksal qərardır. Bu addım rəqabəti süni şəkildə artıracaq və keçid ballarını yüksəldəcək.Bu ixtisası seçən abituriyentlər yalnız bal və plan yerlərinə görə deyil, həm də gələcəkdə işləmək istədikləri bölgədə mövcud iş imkanlarını, müəllim peşəsinin sosial statusunu və dövlət tərəfindən verilən güzəştləri nəzərə almalıdır. Prezidentin müəllimlər üçün həyata keçirdiyi sosial paketlər, təcrübəli müəllimlərə əlavə güzəştlər və dövlət proqramları müəyyən mənada bu peşənin seçilməsini stimullaşdırır.

***-Son illər bu fikir daha çox səsləndirilir ki, 5 ildən sonra əmək bazarının mənzərəsi dəyişəcək. Bəzi ixtisasların ləğv olunacağı deyilir. Qarşıdakı illərdə hansı ixtisaslar ləğv oluna bilər?***

-Dünyada əmək bazarının sürətlə dəyişdiyi, texnologiyanın bir çox ixtisasları əvəz etdiyi bir dövrdə Azərbaycan universitetləri hələ də klassik ixtisas siyahısına üstünlük verir və gələcək trendlərə uyğun təhsil proqramlarını vaxtında yeniləyə bilmir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) 2024-cü il hesabatına əsasən, qarşıdakı 5-10 ildə ən çox risk altında olan peşələr sırf mexaniki və təkrar olunan işlərə əsaslanan ixtisaslardır. Maliyyə mühasibatlığı, ənənəvi hüquqşünaslıq, bəzi idarəetmə və ofis işləri, logistika kimi sahələrdə süni intellekt və avtomatlaşdırma kadr ehtiyacını ciddi şəkildə azaldacaq. Əksinə, STEM ixtisasları - süni intellekt mühəndisliyi, kibertəhlükəsizlik, data analitikası, yaşıl enerji texnologiyaları, biotexnologiya, robototexnika, psixologiya və sosial dəstək sahələri daha çox tələb olunacaq. Azərbaycan universitetləri isə hələ də ixtisas planlamasını keçmiş illərin tələbatına əsaslanaraq edir və bu, məzunların əmək bazarında işsiz qalmasına səbəb olur.



Bütün bu mənzərə onu göstərir ki, qəbul planı və ixtisas seçimi ilə bağlı ümumi proses köklü islahata ehtiyac duyur. Dövlət abituriyentləri yalnız balla deyil, gələcəkdə iş imkanları ilə bağlı düzgün istiqamətləndirməli, universitetlər ixtisas siyahılarını əmək bazarının real proqnozlarına uyğunlaşdırmalı, Elm və Təhsil Nazirliyi isə yalnız rəqəmləri elan etməklə kifayətlənməməli, strateji plan təqdim etməlidir. Hazırkı vəziyyətdə abituriyentlər qərarlarını demək olar ki, məlumat çatışmazlığı şəraitində verir, rəqabət süni şəkildə artır, müəllimlik kimi vacib peşələr isə yanlış idarəetmə səbəbilə daha da risk altında qalır. Azərbaycanın təhsil siyasəti rəqəmləri elan edən, lakin gələcəyi planlaşdırmayan mexanizm kimi qalmaqda davam edir və bu, uzunmüddətli perspektivdə həm təhsilin keyfiyyətinə, həm də gənclərin həyatına ciddi təsir göstərəcək.

***Anar Kəlbiyev***

28_27 IYUl-QARA.qxd 7/31/2025 9:34 PM Page 8



# Dərman monopolistlərinin ağlasığmaz soyğunu: Nəzarətçi qurumlar aciz qalıb

## Vətəndaşların sağlamlığı hesabına "qaz vurub qazan dolduranlar" - Bir "bezpredel"in şok pərdəarxası!

***Azərbaycanın əczaçılıq məhsullarının idxalına çəkdiyi xərclər ilbəil artır. Bu ilin yanvar-iyun aylarında ölkəmizə 259 milyon 390 min ABŞ dolları dəyərində əczaçılıq məhsulları idxal olunub. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 4.6 faiz çoxdur. Hesabat dövründə Azərbaycan həmçinin 1.712 milyon ABŞ dolları dəyərində əczaçılıq məhsulları ixrac edib. Bu isə bir il əvvələ nisbətən 23.4 faiz azdır. Əczaçılıq məhsulları üzrə idxal Azərbaycanın ümumi idxalının 2.25 faizini, ixrac isə ümumi ixracın 0.01 faizini təşkil edib.***

Maraqlıdır, dərmana çəkilən xərclər niyə davamlı olaraq artır? Getdikcə daha çox xəstələnirikmi, yoxsa qiymətlər bahalaşır? Ümumiyyətlə, mövcud bazarda vəziyyəti necə qiymətləndirmək olar?

İqtisad elmləri doktoru, professor Rüfət Quliyev bu günlərdə "Kaspi" qəzetinə açıqlamasında bildirib ki, Azərbaycanda dərman vasitələrinin 90-95 faizi xaricdən gətirilir. Bu vəziyyət hər il çəkilən xərclərin artmasına səbəb olur: "Ona görə yerli istehsala ciddi diqqət ayrılmalıdır. Məsələn, Türkiyə dünyada tanınmış dərman istehsalçısı ölkələrindəndir. Bu ölkənin şirkətlərini Azərbaycana dəvət etmək olar ki, burada öz şəbəkələrini açsınlar. Bazar genişdir, 10 milyondan çox əhalimiz var. Eyni dərmanları gəlib burada istehsal etsinlər".

Lakin bəzi ekspertlərin fikrincə dərman bazarındakı monopolist oyunçular idxalda üstünlüyü öz əllərində cəmləşdirdikləri və rəqabətin genişlənməsini istəmədikləri kimi, yerli istehsalın formalaşmasında da maraqlı deyillər. Elə bu səbəbdən də həmin istiqamətdə təşəbbüsləri əngəlləmək üçün əllərindən gələni edirlər. Hələ üç il öncə deputat Musa Quliyev də bildirmişdi ki, ölkədə dərman istehsalını sürətləndirmək lazımdır: "Həm də istehsalçılara müəyyən imtiyazlar, güzəştlər etmək lazımdır. Heç olmasa 500-1000 adda dərmanın ölkəmizdə istehsalını stimullaşdırmalıyıq. O dərmanların da qiyməti kifayət qədər aşağı olacaq, ölkənin daxilində olduğuna görə də keyfiyyətinə nəzarət etmək imkanları olacaq. Üçüncü təklif dərman monopoliyasına qarşı olmalıdır. Bu gün Azərbaycanda iri idxalçı dərman şirkətlərinə nəzər salsaq, idxal olunan dərmanların 80 faizi üç şirkət tərəfindən gətirilir. Əgər monopoliya lazımdırsa, bunu dövlət monopoliyası edək, topdansatışı dövlət həyata keçirsin, pərakəndə satışı apteklərə verək. Belə təcrübə də ola bilər. Amma bunu istəmiriksə, digər balaca şirkətlər, firmalar da dərman gətirə bilsinlər, rəqabət olsun və qiymət də aşağı düşsün. Apteklərin təxminən 90 faizi o üç şirkətə bağlıdır. Belə olan halda şübhəsiz ki, öz aralarında danışıb qiyməti də istədikləri şəkildə qoyacaqlar. Baxmayaraq ki, Tarif Şurası qiymətləri tənzimləyir, amma o qiymətlər bəzən açıqlanmır, hansı dərmanın qiyməti nə vaxt artacaq. Bunu nə vətəndaş, nə də həkimlər bilir..."



Bir müddət öncə jurnalist Elçin Zahiroğlu da ölkənin dərman bazarındakı çatışmazlıqlardan bəhs edərkən maraqlı məqama toxunmuşdu. O xatırlatmışdı ki, 2015-ci ildə dərmanların vahid qiymətə keçirilməsilə bağlı qərar qəbul edildi və bu qərardan istifadə edən dərman monopolistləri Azərbaycandakı böyük xarici dərman şirkətlərinin ölkədən baş götürüb getməsinə nail oldular. Sitat: "Avropanın tanınmış dərman istehsalçıları bizdən sonra müqavilələrini Gürcüstanla bağladılar, oranı Qafqazın əczaçılıq mərkəzi kimi qəbul etdilər və bu gün Azərbaycanda satılan jenerik məhsulların hamısı Tiflisdən gətirilir. Bu gün Azərbaycanda elementar infuziya dərmanları istehsal olunmur. Halbuki bu preparatları demək olar ki, bütün ölkələr özləri hazırlayır. Biz heç adi qida əlavələrini də istehsal etmirik...

2015-ci ilə qədər apteklər indiki supermarketlər kimi çalışırdı: hər firma öz malını gətirir, vitrin qurur, satışına nəzarət edirdi. Bu sistemin yaxşı tərəfi o idi ki, hansısa adda olan dərmanın tutaq ki, Sumqayıtda zirzəmilərdə hazırlanıb satılması mümkün deyildi. Çünki o dərmanın yiyəsi var idi; onları qoruyur, nəzarət edir, saxta variantlarının satılmasına imkan vermirdi. İndi bu nəzarət demək olar ki, yoxdur və biz hər gün dərman keyfiyyətsizliyinin səbəb olduğu bədbəxt hadisələrlə bağlı xəbərlər oxuyuruq. Ölkəyə cəmi üç yerli firma dərman idxal edir - onlar bazarı formalaşdırır, istədiyi qiymətləri diktə edir... Rəqabət olmadığına, insaflı münasibət ərşə çəkildiyinə, insanların sağlamlığı ilə hansısa texnikanın, məişət əşyasının sazlığı arasında fərq bilməyənlərin bu sahədə olmasına görə ölkə dərman təlatümü ilə üz-üzədir. Onlar bu təlatümü - dərman qıtlığını çox hallarda qəsdən yaradırlar. İki məqsədlə:

1. Bu üsulla Tarif Şurasının qiyməti qaldırmasına nail olmaq;

2. Ucuz dərmanları yoxa çıxarmaq, onların daha bahalı əvəzedicilərini rahat şəkildə satmaq.

Fikir vermisinizsə, ucuz dərmanlar artıq yoxa çıxıb".

Bu günlərdə tanınmış iqtisadçı Rövşən Ağayev isə özünün sosial şəbəkə hesabında dərman monopolistlərinin davam edən soyğunçuluğuna dair maraqlı bir fakt paylaşıb. "Bakıda bizə vacib olan dərmanı 13,5 manata, həm də çox çətinliklə ala bilirik. Hər aptek bizə bu dərmanı vermir. Bəzən şəhərdə xeyli aptek gəzərək, xüsusi reseptlə ala bilirəm. Türkiyədən isə heç bir resept olmadan, 5,4 manata aldıq" deyən ekspert Bakıda dərman qiymətlərinin həm baha, həm də çətin tapıldığını bildirərək əlavə edib ki, üstəlik, çətinliklə tapılan dərmanların keyfiyyəti də aşağıdır: "Bayaq Rəşad bəy Əliyevin statusunda gördüm, İstanbulda 24 manata satılan dərmanın Bakıdakı qiymətinin 72 manat olması barədə. Əslində ötən həftə bu barədə yazacaqdım, başım qarışıq oldu deyə imkan tapa bilmədim. Uzun müddətdir ailə üzvlərimdən birinin müntəzəm qəbul elədiyi bir dərmanı həkim bizə Türkiyədən gətirməyi məsləhət gördü. Səbəbini həm keyfiyyət, həm də qiymət fərqi ilə izah elədi. Təxminən 10 gün əvvəl bir tanış alıb gətirdi və qiymət fərqi həqiqətən böyükdür. Burda biz son 6 ayda həmin dərmanı 13,5 manata, həm də çox çətinliklə ala bilirik. Hər aptek bizə bu dərmanı vermir. Bəzən şəhərdə xeyli aptek gəzərək, xüsusi reseptlə ala bilirəm. Türkiyədən heç bir resept olmadan, 5,4 manata. Artıq deyəcək və yazacaq söz qalmayıb. Çünki danışmaq və yazmaq öz əhəmiyyətini itirib".

Belə faktların, açıqlamaların siyahısını kifayət qədər uzatmaq mümkündür. Üstəlik, dərman bazarında soyğun xarakteri almış "bezpredel"dən cəmiyyətin az qala bütün təbəqələri narazı olduğu halda aidiyyatı qurumlar hələ də bu problemlərin həllində aciz görünürlər.

Maraqlıdır: görəsən, niyə, hansı maraqlara görə?

***Toğrul Əliyev***

---

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

## Mədəniyyət Nazirliyinə bu vəzifələr həvalə olundu

***Mədəniyyət Nazirliyinə Azərbaycan dili və ədəbiyyatı ilə bağlı vəzifələr həvalə olunub.***

"Unikal"ın məlumatına görə, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Nazirliyin vəzifələri sırasına müvafiq sahədə Azərbaycan dilinin tətbiqinə, Azərbaycan dili haqqında normativ hüquqi aktlara, o cümlədən Azərbaycan dilinin normalarına əməl olunmasına nəzarəti həyata keçirmək və Azərbaycan dilinin inkişafının təmin edilməsi, habelə Azərbaycan ədəbiyyatının xaricdə, xarici ədəbiyyatın Azərbaycan Respublikasında tanıdılması və təbliği işini həyata keçirmək daxil edilib.

## Bu icraçı direktorun 3 müavini olacaq

***Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İcraçı direktorunun 3 müavini olacaq.***



"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin imzaladığı Fərmanla Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsinə edilən dəyişikliklərdə əksini tapıb.

İndiyə qədər Xidmətinin İcraçı direktorun 1 müavini olub.

## Dövlət Dil Komissiyasının yeni tərkibi müəyyənləşəcək

***Dövlət Dil Komissiyasının yeni tərkibi məyyənləşəcək.***

"Unikal"ın məlumatına görə, Prezident İlham Əliyev bununla bağlı Fərman imzalayıb.

Fərmana əsasən, Nazirlər Kabineti Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının yeni tərkibi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

28_27 IYUI-QARA.qxd 7/31/2025 9:34 PM Page 9



# Mina partlayışında yaralanan AzTV əməkdaşı məhkəmədə ifadə verib



***İyulun 31-də Bakı Hərbi Məhkəməsində məhkəmə prosesində zərərçəkmiş şəxs Emin Məmmədov ifadəsində AzTV-nin əməkdaşı qismində çəkilişlər üçün Kəlbəcərə ezam olunduğunu, 2021-ci il iyunun 4-də nəqliyyat vasitəsilə hərəkət edərkən rayonun Susuzluq kəndində Ermənistan silahlı qüvvələrinin basdırdığı tank əleyhinə minanın partladığını bildirib.***

"Unikal" xəbər verir ki, o, hadisə nəticəsində AzTV-nin operatoru Sirac Abışovun, Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) müxbiri Məhərrəm İbrahimovun və Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndənin müavini Arif Əliyevin şəhid olduğunu, özü də daxil olmaqla dörd nəfərin bədən xəsarətləri aldığını söyləyib.

E.Məmmədov dövlət ittihamçısının suallarına cavabında hadisə baş verən yolun əvvəllər istifadə edilmiş yol olduğunu bildirib. "Fikrimcə, mina diversiya nəticəsində sonradan yerləşdirilib", - deyə o əlavə edib.

Zərərçəkmiş şəxs təqsirləndirilən şəxslərin də suallarını cavablandırıb.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# AZURE layihəsinin birinci mərhələsi yekunlaşır



***Azərbaycanda bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi layihəsi (AZURE) üzrə işlər davam edir.***

"Unikal" xəbər verir ki, AZURE layihəsinin icra olunmasında əsas məqsəd Azərbaycanda tikilən 2 qeqavat bərpa olunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasını dayanıqlı və təhlükəsiz şəkildə həyata keçirməkdir. Bunun üçün ölkədə əsas qovşaq yarımstansiyası funksiyasını daşımaq üçün ölkənin ən böyük yarımstansiyalarından biri - 500/330 kV-luq "Nəvahi" Enerji Qovşağı tikilir və ordan ölkənin müxtəlif istiqamətlərinə 500 və 330 kilovoltluq yüksəkgərginlikli ötürmə xətləri çəkilir.

AZURE layihəsinin icrası, cari vəziyyət və aktual mövzulara bağlı yeni tikilən "Nəvahi" Qovşaq yarımstansiyasında müşavirə keçirilib. "AzərEnerji" ASC-nin rəhbərliyi, Dünya Bankı və Masdar şirkətinin səlahiyyətli nümayəndələrinin iştirakı ilə keçirilən müşavirədə layihənin gedişatı, qarşıda duran vəzifələr barədə müzakirələr aprılıb. Bildirilib ki, AZURE layihəsi üzrə birinci mərhələdə "AzərEnerji"nin daxili imkanları və bir hissəsi dövlət büdcəsi hesabına ayrılan vəsaitlə tikilən yeni yarımstansiyanın və onun 330 kilovoltluq tərəfinin, o cümlədən Nəvahidən Abşerona 500 kilovoltluq, "Biləsuvar" və "Bankə" günəş elektrik stansiyalarına 330 kilovoltluq ötürmə xətlərinin çəkilməsi işi artıq yekunlaşmaqdadır. İcra qrafikinə əsasən, 2024-cü ilin sentyabr ayından başlanılan işlərin əsas hissəsi görülüb və birinci mərhələ üzrə işlər son fazadadır. Bununla, "Bankə" və "Biləsuvar" günəş elektrik stansiyalarının enerjisistemə qoşulması öhdəliyi yerinə yetiriləcək.

Bu böyük enerji layihəsinin ikinci mərhələsində isə Dünya Bankının maliyyələşdirilmə hissəsinə start verilməsi nəzərdə tutulur. Dünya bankının krediti hesabına "Nəvahi" yarımstansiyasının 500 kilovoltluq tərəfinin və yarımstansiya üçün transformator, əlaqəli avadanlıqların alınması və quraşdırılması, habelə adıçəkilən yarımstansiyadan Mingəçevirə 500 kilovoltluq, o cümlədən Ələt, Abşeron və Qobuya 330 kilovoltluq ötürmə xətlərinin tikintisi həyata keçiriləcək. Bu mərhələnin isə 3 il müddətinə icra olunması nəzərdə tutulub.

# Daha bir deputatın biznesi böyüyür

## Şahin İsmayılov Bakının mərkəzindəki kafe şəbəkəsini genişləndirir

***Milli Məclisin deputatı, parlamentin Gənclər və İdman Komitəsinin sədri Şahin İsmayılov Bakıda yeni biznes fəaliyyətinə başlayıb. Editor.az-ın əldə etdiyi məlumata görə, deputat paytaxtın mərkəzində "Friends Central Perk Baku" adı ilə kafelər şəbəkəsi qurub.***

Mənbənin iddiasına görə, kafe şəbəkəsi sənədlərdə deputatın yaxın adamlarından birinin adına rəsmiləşdirilsə də, faktiki sahibi elə Şahin İsmayılovun özüdür.

Hazırda "Friends Baku" brendi ilə şəhərin müxtəlif mərkəzi nöqtələrində - 4 ünvanda fəaliyyət göstərən bu obyektlər əsasən kofe evi (kofeşop) formatında işləyir və daha çox bahalı seqmentə xitab edir. Bildirilir ki, bu kafelərdən biri paytaxtın tam mərkəzində, M.Rəsulzadə küçəsində, "Tarqovu"da yerləşir.

Qeyd olunur ki, deputat özü də bu məkanlarda tez-tez həmkarları ilə birgə istirahət edir.

Məsələ ilə bağlı Şahin İsmayılovun mövqeyini öyrənmək üçün ona sorğu göndərilsə də, deputat sorğunu cavablandırmayıb.

Xatırladaq ki, 2015-ci ildən Milli Məclisin üzvü olan İsmayılov V və VI çağırış zamanı 81 saylı Beyləqan, VII çağırış zamanı isə 83 saylı Beyləqan seçki dairəsindən mandat qazanıb. O, ilk dəfə 29 yaşında deputat seçilib, buna qədər isə 2008-2009-cu illərdə Azərbaycan Dillər Universitetində Tələbə Gənclər Təşkilatının sədri, Tədris hissəsinin dispetçeri, İnformasiya resursları kompleksinin baş mütəxəssisi vəzifələrində çalışıb. 2009-2018-ci illərdə Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri, 2013-2018-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun Müşahidə Şurasının üzvü olub.

İsmayılovun deputat seçildikdən bir müddət sonra öz biznesini formalaşdırmağa başladığı iddia edilir.

Xatırladaq ki, qanunvericiliyə əsasən Milli Məclisin deputatları biznes fəaliyyəti ilə məşğul ola bilməzlər. Azərbaycan Respublikası Konstitusiyasının 85 və 89-cu maddələrində qeyd olunur ki, dövlət orqanlarında vəzifə tutan və ödənişli əsaslarla çalışan, kommersiya və sahibkarlıqla məşğul olan şəxslərin deputat olması qadağandır.

Lakin buna baxmayaraq 1995-ci ildən üzü bu yana fəaliyyət göstərən yeddi çağırış parlamentin hamısında biznesmen deputatlar təmsil olunub. Düzdür, onlar bu fəaliyyətini rəsmi şəkildə həyata keçirmirlər, hər hansı ailə üzvünün və ya qohumunun adına rəsmiləşdirirlər. Bir sözlə, bugünkü ali qanunverici orqanda faktiki olaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olan deputatların sayı az deyil. Şahin İsmayılov da onlardan yalnız biridir.

Hazırkı millət vəkilləri arasında biznesmen kimi tanınanlardan Cavanşir Feyziyevin adı diqqət çəkir. Faktiki olaraq Feyziyevin özü tərəfindən idarə olunduğu deyilən "Avromed" QSC ölkənin ən böyük əczaçılıq şirkətlərindəndir. İddialara görə, paytaxt Bakıda və regionlarda fəaliyyət göstərən əksər apteklər "Avromed"dən məhsul götürürlər. Dərman preparatları və tibbi ləvazimatların topdan satışını həyata keçirən şirkətin böyük dərman deposu fəaliyyət göstərir. Eyni zamanda Azərbaycanda ən böyük apteklər şəbəkəsi də "Avromed"ə məxsusdur. Feyziyevin bununla yanaşı, digər şirkətlərinin olduğuna dair məlumatlar da var. Bu sırada "Krokurs LTD" MMC, "İmeks" MMC, "Amd Trade" MMC, "Buta Farm" MMC, "Docta" MMC və digər şirkətlərin adı çəkilir. İddia olunur ki, ölkəyə idxal olunan və Ukraynada istehsal edilən xarici siqaretlərin Azərbaycana gətirilməsini də deputatın rəhbəri olduğu şirkətlərdən biri həyata keçirir.

Biznesmen deputatlar arasında diqqət çəkən fiqurlardan biri isə Xanlar Fətiyevdir. Onun və yaxınlarının Azərbaycanla yanaşı, Almaniya, Avstraliya, Rusiya, Belarus və Gürcüstan da daxil olmaqla çox sayda xarici ölkədə şirkətlərinin olduğu deyilir. Bildirilir ki, Fətiyevlərin biznesi əsasən avtomobillərin icarəsi, supermarketlər şəbəkəsi, reklam və s. sahələri əhatə edir.

Yuxarıda adları çəkilənlər biznesmen deputatların kiçik bir hissəsidir.

İş adamlarının Milli Məclisə mandat qazanmasına cəmiyyətdə münasibət birmənalı deyil. Bir çoxlarının fikrincə, 1990-cı illərin ikinci yarısında və 2000-ci illərin əvvəllərində biznesmenlərin deputat olmaları bəlkə də bölgələrdə insanların sosial şəraitinin yaxşılaşdırılmasına xidmət etmək məqsədi daşıyırdı. Lakin reallıq ondan ibarətdir ki, belə millət vəkilləri hazırda daha çox özlərinin və yaxın ətraflarının biznes maraqlarını qorumaqla, genişləndirməklə məşğuldurlar, əvəzində isə nə hansısa qanunvericilik təşəbbüsü ilə çıxış edirlər, nə də mandat aldıqları dairələrdə yaşayan vətəndaşların sosial problemlərinin həlli üçün əl uzadırlar.



**Sənan Mirzə**

28_27 IYUl-QARA.qxd 7/31/2025 9:34 PM Page 10



# Səfər Mehdiyevin on milyonlarla manat ayırdığı binada xoşagəlməz hadisə

## Dövlət Gömrük Komitəsinin yenicə açılan binasını niyə su basıb? - İlginc iddia!




***Dövlət Gömrük Komitəsinin (DGK) ötən ay istifadəyə verilən yeni inzibati binasını su basıb. Bu barədə görüntülər sosial şəbəkələrdə yayılıb.***

İddia edilir ki, ümumi sahəsi 25 min kvadratmetr olan 18 mərtəbəli binada keyfiyyətsiz çəkilən su xəttinin partlaması nəticəsində komitənin struktur bölmələrinin əməkdaşları üçün nəzərdə tutulan otağa ciddi ziyan dəyib. Həmçinin Dövlət Gömrük Komitəsinə məxsus mühüm sənədlər məhv olub, hər birinin bazar dəyəri 6-10 min manat olan bahalı kompüterlər sıradan çıxıb.

“Qaynarinfo” məsələ ilə bağlı Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, gömrük xidməti polkovniki Natiq Axundovla əlaqə saxlayıb. O, məzuniyyətdə olduğundan hadisə ilə bağlı açıqlama verə bilməyəcəyini deyib.

İdarə rəisinin tövsiyyəsi ilə rəhbərlik etdiyi quruma sorğu göndərilib. Əvəzində bildirilib ki, bu barədə hər hansı bir açıqlama olsa, məlumat veriləcək.

Sonradan isə Dövlət Gömrük Komitəsi məsələ ilə bağlı qısa açıqlama yayıb. Açıqlamada deyilir: ”Soyutma sistemində qısamüddətli texniki nasazlıq baş verib və tez bir zamanda aradan qaldırılıb”. Göründüyü kimi, Komitə subasmaya su xəttinin keyfiyyətsiz çəkilməsinin səbəb olduğu yönündə iddianın üzərindən sükutla keçib, onu təkzib etməyə nədənsə ehtiyac görməyib.

Xatırladaq ki, DGK-nin yeni binasının inşasına bu qurumun sabiq sədri Səfər Mehdiyevin zamanında - 2020-ci ildə başlanılıb.

2022-ci ilin iyulunda Mehdiyev vəzifədən azad olunub. Həmin vaxt binanın inşasının mühüm hissəsi başa çatdırılmışdı. “Yeni inzibati binanın tikintisinə ötən ildən başlanılıb və uğurla davam etdirilir. Bir neçə ilə bu layihə uğurla başa çatdırılacaq” - sabiq sədr vəzifədən azad olunmazdan öncə demişdi.

Ötən ay açılış mərasimində isə ölkə rəhbərinə məlumat verilmişdi ki, ümumi sahəsi 25 min kvadratmetr olan 18 mərtəbəli binada komitənin struktur bölmələrinin əməkdaşlarının yüksək səviyyədə çalışması üçün hərtərəfli şərait yaradılıb. “Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının layihə-quraşdırma işlərində maksimum səviyyədə ən müasir texnologiyalardan istifadə olunub. Bütün layihəçilər, mühəndislər və inşaatçılar Azərbaycan vətəndaşlarıdır və ölkə universitetlərinin məzunlarıdırlar” - açılış mərasimində qeyd edilmişdi.

Lakin cəmi bir ay sonra inzibati binanı su basmasına dair yayılan məlumat görülən işin keyfiyyəti və ayrılmış milyonlarla manatın təyinatı üzrə xərclənməsi barədə suallara yol açır.

Onu da deyək ki, S.Mehdiyev Dövlət Gömrük Komitəsinin yeni binasının Komitənin büdcədənkənar vəsaiti hesabına inşa ediləcəyini bildirmişdi. O, 2020-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş tədbirdə bildirmişdi ki, DGK bəzən bir ildə 8 milyon manat, bəzən 10 milyon manat, bəzən də 15 milyon manat büdcədənkənar əlavə vəsait toplayır. Bu vəsait də Dövlət Gömrük Komitəsinin daha da inkişaf etdirilməsinə, gömrük orqanları işçilərinin iş şəraitinin yaxşılaşdırılmasına yönəldilir. Bir yandan koronavirusun tüğyan etdiyi, digər tərəfdən ölkənin 44 günlük müharibədən çıxdığı bir vaxtda bu binanın tikintisinə nə ehtiyac olduğu barədə cəmiyyətdə müzakirələr gedirdi. Görünür, həmin müzakirələrə cavab olaraq Mehdiyev bildirmişdi ki, bu gün DGK-nın yeni inzibati binasına ehtiyacı var: “Siz görsəniz ki, bu gün bəzi əməkdaşlarımız hansı şəraitdə işləyir. Bəzi idarələrin əməkdaşları icarədə otururlar. Onların hamısının bir yerdə oturması daha münasib olardı”.

O, əlavə etmişdi ki, komitə artıq 30 milyon manat smeta və satınalma tenderlərini həyata keçirib: “Zaman keçdikcə, bu inzibati bina büdcədənkənar vəsait hesabına inşa etdiriləcək”. Sabiq sədrin sözlərindən haqqında danışılan binanın ən azı 30 milyon manata başa gəldiyini söyləmək mümkündür.

Bir daha qeyd edək Mehdiyev 2022-ci ilin iyulunda vəzifədən azad edilib. O, postunu itirməzdən günlər öncə DTX tərəfindən Dövlət Gömrük Komitəsində ardıcıl əməliyyatlar keçirilib. Həmin əməliyyatlarda 2-si general olmaqla bir qrup vəzifəli şəxs həbs olunub. Onlara qarşı vəzifə cinayətləri ittihamı irəli sürülüb.

***Sənan Mirzə***

# Audiovizual məhsulların istehsalı və yayımı üzrə müsabiqənin nəticələri açıqlanıb

***Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Azərbaycan Respublikası Audiovizual Şurası tərəfindən yeni media mühitində auditoriya yönümlü və hədəf kütlələrə hesablanmış məzmun istehsalı və yayımının təşviqi, maarifləndirici materialların rəqabətədavamlılığının artırılması, məzmun müxtəlifliyi və yaradıcılığının stimullaşdırılması, dövlət və cəmiyyət üçün prioritet istiqamətlər barədə məlumatların ictimaiyyətə səmərəli şəkildə çatdırılması məqsədilə 23 may 2025-ci ildə elan olunmuş dövlət sifarişi əsasında audiovizual məhsulların istehsalı və yayımı üzrə müsabiqənin nəticələri açıqlanıb.***

Bu barədə “Unikal”a MEDİA-dan məlumat verilib.

AzTV, Space TV, ATV, Xəzər TV, ARB TV, ARB24 və Real TV televiziya kanalları proqram kateqoriyasında qalib olub.

Sosial videoçarx kateqoriyasında isə AzTV, ATV və ARB24 televiziya kanalları uğur qazanıb.

# Şuşada konsulluq açmağa hazırıq

***Azərbaycanın qərarı ilə Şuşada və ya Qarabağda istənilən şəhərdə konsulluq açmağa hazırıq.***

“Unikal” xəbər verir ki, bunu APA-ya müsahibəsində Türkiyənin Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Birol Akgün bildirib.

“Şuşada Türkiyə konsulluğunun açılmasıyla əlaqədar 2021-ci ildə müraciətimiz olub. Amma hələ Şuşada heç bir ölkənin konsulluğu yoxdur. Bu, Azərbaycanın suveren hüquqları çərçivəsində verəcəyi bir qərardır. Biz Azərbaycanın qərarı ilə Şuşada və ya Qarabağda istənilən şəhərdə konsulluq açmağa hazırıq”, - deyə səfir qeyd edib.

# Bu şəxslər təhsilalma formasını dəyişdirə bilməyəcək

***Ali təhsil müəssisəsinə qəbul imtahanlarında iştirak etmədən müsabiqə yolu ilə qəbul olunmuş subbakalavrların təhsilalma formasını dəyişdirməsinə yol verilməyəcək.***

“Unikal” xəbər verir ki, Elm və Təhsil Nazirliyinin Kollegiyası bununla bağlı “Ali təhsil müəssisələrinin bakalavriat (əsas (baza ali) tibb təhsilində) və magistratura səviyyələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) Qaydaları”na dəyişiklik edib.

Qeyd edək ki, hazırda ali təhsil müəssisəsinə qəbul imtahanlarında iştirak etmədən müsabiqə yolu ilə qəbul olunmuş subbakalavrların təhsil müəssisəsini, ixtisasını dəyişdirməsinə yol verilmir. Beləliklə, bundan sonra həmin subbakalavrların təhsilalma formasını dəyişdirməsinə də yol verilməyəcək.

# Yol polisindən valideynlərə müraciət

***DİN-in Baş Dövlət Yol Polisi İdarəsi valideynlərə və qəyyumlara çağırış edib.***

BDYPİ-dən “Unikal”a verilən məlumata görə, müraciətdə deyilir: ”Yol hərəkətində təhlükəsizliyin təmin olunması hər bir hərəkət iştirakçısının məsuliyyətli davranışından asılıdır. Təəssüf ki, bəzən valideynlər, xüsusilə də velosiped, moped və ya motosikletlə hərəkət edən şəxslər təhlükənin fərqində olmadan, azyaşlı övladlarını bu nəqliyyat vasitələrinin arxasında və ya əlavə oturacaq hissəsində daşımaqla onların həyatını ciddi təhlükə altına atırlar.Unutmaq olmaz ki, azyaşlıların bədən quruluşu və refleksləri qəfil vəziyyətlərə qarşı müdafiəsizdir və yüngül sayılan bir zərbə belə ciddi xəsarətlərlə nəticələnə bilər.

Şübhəsiz ki, heç bir valideyn övladına zərər vermək istəmir - əksinə, onu çox sevir, qoruyur. Lakin bəzən edilən hərəkət - yəni təhlükə ehtimalı olan şəraitdə uşağı velosiped və ya motosikletlə aparmaq - bu sevginin əksi olan bir davranış kimi qiymətləndirilə bilər. Təhlükədən xəbərsiz körpə valideyninin məsuliyyətsizliyi ucbatından həyatını itirə və ya ömürlük iz buraxan xəsarətlərlə üzləşə bilər.

Baş Dövlət Yol Polisi İdarəsi bir daha bütün valideynlərə və qəyyumlara çağırış edir:

Heç bir səbəb - tələsiklik, məsafənin yaxın olması və ya şəxsi rahatlıq - uşaqların həyatını təhlükəyə atmağa haqq qazandırmır. Qaydalara əməl etməklə faciədən yayınmaq mümkündür.

Unutmayın: sonrakı peşmançılıq - nə təhlükəni aradan qaldırır, nə də əzizlərinizi geri qaytarır!”



# Azərbaycanda iki dərman vasitəsi geri çağırılıb

***"Zeytun Pharmaceuticals" MMC şirkəti 23.07.2025-ci il tarixli məktubunda iki dərman vasitəsinin könüllü geri çağırılması üçün Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinə müraciət edib.***

"Unikal" xəbər verir ki, bu barədə mərkəz məlumat yayıb.

1) Vəsiqə sahibi "Denk Pharma GmbH Ko.KG / Almaniya" şirkəti olan "Para-Denk 125 Suppos" ticarət adlı paracetamol - 125 mg/supp tərkibli rektal şamlar №10 (2?5) blisterdə, karton qutu qablaşmada (27339 seriyalı, son istifadə tarixi 31.03.2026, 27839 seriyalı, son istifadə tarixi 01.08.2026, 26906 seriyalı, son istifadə tarixi 31.07.25) olan dərman vasitəsi;

2) Vəsiqə sahibi "Denk Pharma GmbH Ko.KG / Almaniya" şirkəti olan "Para-Denk 250 Suppos" ticarət adlı paracetamol - 250 mg/supp tərkibli rektal şamlar №10 (2?5) blisterdə, karton qutu qablaşmada (27292 seriyalı, son istifadə tarixi 28.02.2026, 27822 seriyalı, son istifadə tarixi 30.06.2026) olan dərman vasitəsi.

Geri çağırılmaya səbəb kimi qablaşdırma zədələnmələri (sızmalar) göstərilib. Qeyd edilən dərman vasitələrinin geri çağırılma dərəcəsinin 3 (dərman vasitəsinin şəxsin həyat və sağlamlığına birbaşa təhlükə yaratmadığı hallar), dərman vasitəsinin geri çağırılma səviyyəsinin isə "C" (topdansatış müəssisəsinə qədər) səviyyəsində müəyyən olunduğu bildirilmişdir.

Yoxlama zamanı hər iki dərman vasitəsində göstərilən qüsurların mövcudluğu təsdiqlənib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 noyabr tarixli 460 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dərman vasitələrinin geri çağırılması Qaydası"na uyğun olaraq, adıçəkilən dərman vasitələrinin geri çağırılması barədə qərar qəbul edilib.

# Ölkəmizdə çəyirtkə axınına qarşı tədbirlər gücləndirilib

***Rusiyanın Dağıstan Respublikasının şimalında çəyirtkələrin kütləvi yayılması və bu səbəbdən fövqəladə vəziyyət elan edilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Bitki Mühafizə və Fumiqasiya Mərkəzi gücləndirilmiş iş rejiminə keçib.***

Nazirlikdən "Unikal"a verilən məlumata görə, sərhəd boyu ərazilərdə mütəmadi monitorinqlərə başlanılıb. Miqrasiya təhlükəsi nəzərə alınaraq kimyəvi mübarizənin operativ təşkili üçün bütün texnika və avadanlıqlar tam hazır vəziyyətə gətirilib.

Bölgələrdə müşahidə və nəzarət tədbirləri gücləndirilib, yerli qurumlar zəruri dərman preparatları ilə tam şəkildə təmin olunub.

Qeyd edək ki, çəyirtkələr kənd təsərrüfatı bitkiləri üçün ən təhlükəli zərərvericilərdən biridir. Onlar bitkilərin yarpaq və digər orqanlarını kobud şəkildə gəmirərək zədələyir, nəticədə bitkinin inkişafı dayanır və məhsuldarlıq azalır. Çəyirtkələr taxıl, meyvətərəvəz, pambıq və digər mədəni bitki əkinlərinə, hətta meyvə ağaclarına ciddi ziyan vururlar.

Hazırda respublika ərazisində çəyirtkələrin, əsasən daha təhlükəli 3 növünə - Mərakeş (Dociostaurus maroccanus Thunb.), Asiya (Locusta migratoria L.) və İtaliya (Caloptenus italicus (Linnaeus)) çəyirtkələrinə rast gəlinir. Mərakeş çəyirtkəsi geniş yayılmış və çoxsaylı növdür.

Cari ilin əvvəlindən ölkə ərazisində çəyirtkələrə qarşı müşahidə və mübarizə tədbirlərinə başlanılıb və bu tədbirlər mövsüm ərzində ardıcıl şəkildə davam etdirilir. Qeyd edək ki, Aqrar Xidmətlər Agentliyinin Bitki Mühafizəsi və Fumiqasiya (zərərsizləşdirmə) Mərkəzinin yerli qurumları tərəfindən 2025-ci ilin iyul ayınadək 47 178 hektar sahədə müşahidələr aparılıb, 10 315 hektar sahədə sirayətlənmə qeydə alınıb, 5 100 hektar sahədə kimyəvi mübarizə tədbirləri görülüb.

# Məmurların altı ayda on milyonlarla manatlıq yeyintisinin sensasion təfərrüatları

## Hətta həbslər də bəzi vəzifəlilərin gözünü qorxutmur - Elə isə bundan sonra nə etməli?

***Bu ilin I yarısında nəticələri rəsmiləşdirilmiş auditlər üzrə maliyyə hesabatlılığında ümumilikdə 105,1 milyon manat təhrif aşkarlanıb. Bu barədə Hesablama Palatasının audit nəticələrindən məlum olub.***

Palatadan bildirilib ki, bu məbləğin 12,6 milyon manatı əhəmiyyətli təhriflər olub.

Audit nəticələrinə əsasən 7 halda nəzarət obyektlərinə auditor hesabatların və Kollegiyanın qərarları göndərilib. Başa çatdırılmış nəzarət tədbirlərinin nəticələri həmçinin Milli Məclisə, Naxçıvan Ali Məclisinə, Naxçıvan Nazirlər Kabinetinə, eləcə də Azərbaycan və Naxçıvanın Maliyyə Nazirliklərinə təqdim olunub.

Palatanın hesabatında o da qeyd olunub ki, əvvəlki illərdə aşkarlanmış 300 milyon manatdan çox əhəmiyyətli təhrif üzrə müvafiq düzəlişlər həyata keçirilib. Bu, auditin təsir gücünün və maliyyə şəffaflığının artırılmasına yönəlmiş tədbirlərin davamlılığını göstərir.



Onu da deyək ki, cari ilin ilk yarısında həyata keçirilmiş audit tədbirləri zamanı aşkarlanan və ən çox təkrarlanan maliyyə pozuntuları aşağıdakılardır:

- Büdcə vəsaitlərinin düzgün proqnozlaşdırılmaması nəticəsində onların təyinatının dəyişdirilməsi;
- Qurumların qanunvericiliklə müəyyən edilmiş funksiyalarına aid olmayan istiqamətlər üzrə vəsaitlərin xərclənməsi;
- Yanacaq və nəqliyyat normasına əməl edilməməsi, beynəlxalq tədbirlərdə artıq xərclərə yol verilməsi;
- "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinin pozulması - satınalma planlarının hazırlanması və icrasında nöqsanlar;
- Tender komissiyalarının fəaliyyəti zamanı şəffaflıq və rəqabət prinsiplərinə əməl olunmaması;
- Satınalma müqavilələrinin icrasında gecikmələr və aşağı icra göstəriciləri;
- Tikintisi başa çatmış obyektlərin vaxtında istismara verilməməsi nəticəsində mühasibat uçotunda qeyri-dəqiq əksolunmalar;
- Dövlət investisiyalarının idarə olunması zamanı normativ aktların düzgün tətbiq edilməməsi.

Hesablama Palatası bu pozuntularla bağlı məsul qurumlara təkliflər paketini təqdim edib və qanunvericilikdə dəyişikliklərin, o cümlədən dövlət satınalmalarının təkmilləşdirilməsinin vacibliyini vurğulayıb.

Aydın görünür ki, xüsusilə son illərdə korrupsiyaya qarşı mübarizənin genişləndirilməsinə, sabiq nazir, icra başçısı, nazir müavini kimi yüksək post sahiblərinin anti-korrupsiya tədbirləri çərçivəsində saxlanılmasına, həbs edilməsinə baxmayaraq onlardan - "gözü çıxmış qardaşlarından" dərs almayan məmurlar hələ də yetərincədir. Bəs belədə nə etməli?

Qeyd edək ki, dünya təcrübəsində vəzifəli şəxsləri korrupsiyadan çəkindirmək üçün fərqli yollardan istifadə olunur. Məsələn, Çin korrupsiya ilə bağlı ən sərt cəza tədbirləri tətbiq edən ölkələrdəndir. 2016-cı ildən etibarən korrupsiyada təqsirli bilinən yüksək vəzifəli məmurlara ölüm cəzası və ya ömürlük həbs tətbiq olunur. Məsələn, 2020-ci ildə sabiq bank rəhbəri Lai Xiaomin 260 milyon dollar rüşvət aldığı üçün edam edilmişdi.

İndoneziyada isə korrupsiyaya görə 20 ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Bəzi hallarda ömürlük həbs də mümkündür.

Yaxud Vyetnamda korrupsiya hallarına qarşı ölüm cəzası qüvvədədir. 2022-ci ildə yüksək vəzifəli bir neçə rəsmi bu əsasla mühakimə olunub.

Rumıniyada Korrupsiyaya Qarşı Milli Direktorluq (DNA) tərəfindən aparılan istintaqlar nəticəsində rüşvət alan məmurların qanunsuz yolla əldə edilmiş əmlakı müsadirə olunur. Əldə olunan vəsait dövlət büdcəsinə yönləndirilir. İtaliyada isə korrupsiyaya görə yalnız azadlıqdan məhrumetmə deyil, həm də ciddi maliyyə sanksiyaları - cərimələr və əmlak müsadirəsi tətbiq olunur.

Braziliyada korrupsiya cinayətlərinə görə məmurlar yalnız cəzalandırılmır, həm də dövlət qulluğunda işləmək hüququndan ömürlük məhrum edilirlər. Sinqapurda isə korrupsiyaya qarşı mübarizədə uzunmüddətli həbslər və əmlak müsadirə ilə yanaşı şəffaflıq və ictimaiyyətin məlumatlandırılması, beləliklə, ləyaqətin zədələnməsi əsas yer tutur. Məmurların korrupsiya əməlləri mediada geniş işıqlandırılır, bu da onların nüfuzuna ciddi zərbə vurur.

Əlbəttə, bizdə də məmurlar korrupsiyaya görə ciddi həbs cəzası alır, onların əmlakları müsadirə olunur. Lakin təəssüf ki, çox keçmədən fərqli mənzərənin şahidinə çevrilirik - dövlət vəsaitini talayanların həbs cəzası tədricən azaldılır, müsadirə edilən əmlakların ya tamamı, ya da önəmli qismi özlərinə qaytarılır. Məhz bu cür "güzəşt" vəzifədə olan bəzi məmurları yeyintiyə, mənimsəməyə həvəsləndirir. Onlar fikirləşirlər ki, bir halda zindanda çox qalmayacaqlar, qanunsuz yığdıqları sərvətin böyük hissəsi isə onsuz da özlərinə qalacaq, belədə, milyonlarla manat üçün lap elə bir neçə il həbsə düşmək də olar...

Bir sözlə, korrupsiya ilə mübarizənin effektivliyi, səmərəliliyi naminə həbslər, əmlak müsadirələri, digər cəza tədbirləri hələ hər şey demək deyil, güzəştsizlik də olmalıdır - vəzifə sahibləri bilməlidirlər ki, dövlət vəsaitlərinə yan gözlə baxmağın bədəlini ən ağır formada ödəyəcəklər, bu cinayətə görə hər hansı güzəştdən, əfvdən söhbət belə gedə bilməz, üstəlik, qanunsuzluqla topladıqları varidatdan onlara qara qəpik də qalmayacaq...

***Toğrul Əliyev***

28_27 IYUl-QARA.qxd 7/31/2025 9:34 PM Page 12



**5.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda insan hüquqlarının qorunması və qanunvericiliklə bağlı mühüm addımlar atılıb

## Razi Nurullayev: “Azərbaycanda insan hüquqlarının qorunması istiqamətində xeyli irəliləyişlər var”



***İnsan hüquqlarının təmin edilməsi demokratik ölkələrin prioritet siyasi xətti, dövlətin ali məqsədidir. Azərbaycan dövləti də ölkədə insan hüquqlarının qorunmasına, hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir.***

Ölkəmizin insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, normativ-hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində görülən işlər buna bir nümunədir. Bu məqsədlə Azərbaycan prezidenti İlham Əliyev tərəfindən ”Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” da qəbul olunub.

Bu proqramın əsas məqsədi demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan Respublikası insanların layiqli həyat şəraitinin, rifah səviyyəsinin, cəmiyyətdə özlərini təsdiqetmə imkanlarının artırılması üçün ciddi səylər göstərilməsidir. 2006-cı ildə qəbul edilmiş “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət edib.

Bu günə kimi müxtəlif zamanlarda “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının”n icra vəziyyəti mütəmadi qaydada təhlil edilmiş, onun icrası nəticələrinin müzakirəsi üçün cəmiyyətin bütün təbəqələrinin nümayəndələrinin iştirakı ilə ictimai dinləmələr keçirilib.

Milli Fəaliyyət Proqramında əhalinin həssas qruplarına aid olan şəxslərin, qaçqın və məcburi köçkünlərin, məhkumların, hərbi qulluqçuların, qadınların, uşaqların, ahılların, əlillərin hüquqlarının təmin edilməsində səmərəliliyin artırılması məqsədilə fəaliyyət istiqamətləri müəyyən olunub. Bu istiqamətdə atılan addımlardan ən mühümü Ombudsman təsisatının yaradılmasıdır.

Bəs görəsən, İnsan Hüquqları üzrə Müvəkkilin insan hüquqlarının təmin edilməsi istiqamətində atdığı addımlar insan hüquqlarının pozulmasının qarşısının alınmasında səmərə verirmi?

Ombudsman Aparatından sorğumuza cavabda bildirildi ki, Müvəkkilin insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunmasını, ona əməl edilməsini, təmini vəziyyətinin öyrənilməsini, monitorinqini və təhlilini, çatışmazlıqların və pozuntuların aşkar edilməsini, pozulmuş hüquqların bərpasını və pozulmasının qarşısının alınmasını təmin edir.

Qurumdan bildirilib ki, insanlar öz şikayətlərini Müvəkkilə müxtəlif vasitələrlə verə bilərlər. Ombudsman Aparatında və regional mərkəzlərdə keçirilən qəbullar zamanı, Ombudsmanın, onun aparatının və regional mərkəzlərinin əməkdaşlarının respublikanın şəhər və rayonlarında əhali qrupları ilə görüşləri zamanı da hüquqpozmalarla bağlı şikayətlər dinlənilir.

Cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına, müvəqqəti saxlama yerlərinə başçəkmələr zamanı da hüquq pozuntuları ilə bağlı şikayətləri təqdim etmək imkanı mümkündür. Müvəkkil vətəndaşların, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin insan hüquqlarının pozulmasına dair şikayətlərinə də baxır.

Əhali qrupları ilə canlı ünsiyyət yaradılır, izahat işi aparılır, hüquqi məsləhətlər verilir, insanları narahat edən problem və çətinliklər müəyyən edilir. Daha sonra mərkəzi və yerli icra hakimiyyəti orqanları, bələdiyyələrlə əməkdaşlıqda müvafiq tədbirlər görülür.

Hüquqları pozulmuş şəxsin razılığı ilə xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda və ya öz hüquqlarını müstəqil şəkildə müdafiə etmək qabiliyyəti olmayan şəxslərin maraqlarına toxunulduğu hallarda Müvəkkilin öz təşəbbüsü ilə araşdırma aparmaq səlahiyyəti də var. Qurumdan bildirilir ki,Ombudsman daim insan hüquqlarının təmini üçün qanunvericiliyin təkminləşdirilməsi üçün Milli Məclisə təkliflər verir.

Milli Məclisin deputatı, İnsan hüquqları komitəsinin üzvü Razi Nurullayev “Unikal” qəzetinə müsahibəsində bildirib ki, insan hüquqlarının təmini üçün daim qanunvericiliyə düzəlişlər edilir:

“Cənab prezidentin müvafiq sərəncamı ilə hüquq sistemində islahatlar aparılır. Bunun üçün qanunvericilik aktlarına ciddi, reformis dəyişikliklər edilib. Qanunvericiliyimiz demokratik dünyanın qanunlarına uyğunlaşdırılıb. Bu proses davam edir. Biz hər sesiyada qanunları təkminləşdiririk. İnsan hüquqlarının qorunması üçün də qanunlara dəyişikliklər edilir. Bəzən müharibələr, regional münaqişələr qanunların dəyişdirilməsinə zərurət yaradır ki, bu da milli maraqların qorunması, dövlətin təhlükəsizliyi məqsədi daşıyır. Buna görə bəzən insan hüquqları məhdudlaşdıran qanunlar tətbiq edilir. Amma son zamanlar Azərbaycanda insan hüquqlarının qorunması istiqamətində xeyli irəliləyişlər var. Bununla belə problemlər də mövcuddur. Ona görə, İnsan hüquqları komitəsində hər sessiyada müzakirələr aparılır. İnsan hüquqları komitəsi üçün mühafizə orqanları ilə görüşlər keçirilir, təkliflər verilir. Qurumlar da təkliflərə müsbət münasibət göstərirlər. Buna görə də insan hüquqlarının qorunması üçün müsbət nəticələr əldə edilib. Beynəlxalq təşkilatların da bu yöndə təklifləri dinlənilir, tövsiyyələri nəzərə alınır. Bununla belə düşünürəm ki, Azərbaycan vətəndaşlarının hüquqlarının qorunması istiqamətində daim işlər aparılmalıdır”.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# "Ana dilimiz xalqımızın milli kimliyini bütün dünyaya təqdim edir" - Deputat

***“Azərbaycan xalqının ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Ulu Öndər Heydər Əliyev hər zaman ana dilinə böyük ehtiramla yanaşıb. Heydər Əliyevin sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdə ana dilində mətbuatın, mədəniyyətin, elm və təhsilin inkişafı üçün böyük işlər görülüb, dövlət dilinin ictimai-siyasi və mədəni mövqeyinin yüksəlməsinə nail olunub. Məhz Ulu Öndərin qayğı və diqqəti nəticəsində o dövrdə Azərbaycan dili ölkəmizdə dövlət dili kimi rəsmiləşmişdi. Belə ki, ulu öndər Heydər Əliyevin cəsarəti və qətiyyəti sayəsində 1978-ci ildə Azərbaycan SSR-in konstitusiyasında ilk dəfə Azərbaycan dili dövlət dili kimi təsbit edildi”.***

Bunu ”Unikal”a açıqlamasında Milli Məclisin deputatı Samir Vəliyev deyib.

Deputat bildirib ki, müstəqil Azərbaycan dövlətinin dil siyasətinin müəyyənləşməsi də Ulu Öndərin adı ilə bağlıdır. Müstəqillik dövründə ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra Azərbaycan dilinin inkişafında yeni mərhələ başlandı. Belə ki, 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu. Bütün bunların həyata keçirilməsində böyük öndərimiz Heydər Əliyevin apardığı dil siyasətinin çox mühüm önəmi, əhəmiyyəti vardır. Ulu Öndər Heydər Əliyevin müvafiq Fərmanı ilə 1 avqust tarixi ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur. Böyük öndərimiz doğma dilimiz haqqında çox müdrik kəlamlar səsləndirib. Bu kəlamlardan birini xatırlayaq: “Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm”.

Millət vəkilinin sözlərinə görə, müstəqillik illərində Heydər Əliyevin qayğısı nəticəsində ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu, cəmiyyətdəki mövqeləri tam bərpa edildi. Bu gün dilimizin özünəməxsus kamil qrammatik quruluşu, zəngin fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır. Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” ümummilli lider Heydər Əliyevin 18 iyun 2001-ci il tarixli fərmanında deyilir: “Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Müstəqil dövlətimizin rəsmi dili statusunu almış Azərbaycan dilinin geniş tətbiq edilməsi və sərbəst inkişafı üçün münbit zəmin yaranmışdır. Tarixin müxtəlif mərhələlərində dilimizə qarşı edilmiş haqsızlıqların, təzyiq və təhriflərin nəticələrinin aradan qaldırılması üçün hazırda ölkəmizdə çox əlverişli şərait mövcuddur. Dil öz daxili qanunları əsasında inkişaf edirsə də, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir”. 2003-cü il yanvarın 2-də isə Ulu Öndərin fərmanı ilə “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi.

Bu gün Azərbaycan dili ölkəmizin dövlət dili səviyyəsində qərarlaşaraq xalqımızın milli kimliyini bütün dünyaya təqdim edir. Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi dil siyasətini bu gün Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir. Ümummilli Liderin ideyalarını layiqincə yerinə yetirən Azərbaycan Prezidenti İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Prezident İlham Əliyev tərəfindən 2004-cü il yanvarın 12-də imzalanmış “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Sərəncamı bu baxımdan böyük əhəmiyyət kəsbb edir. Eyni zamanda, müasir dövrün tələblərini və reallıqlarını nəzərə alan Azərbaycan Prezidentinin “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nı 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq etməsi milli və mənəvi varlığımızın güzgüsü olan ana dilimizin saflığının və zənginliyinin qorunması baxımından mühüm tarixi hadisədir. Beləliklə, Prezident İlham Əliyev Azərbaycan dilinin qorunması istiqamətində verdiyi qərarlarla hər zaman dilimizin və mədəniyyətimizin keşiyində dayandığını təsdiqləyir.

28_27 IYUl-QARA.qxd 7/31/2025 9:34 PM Page 13





## DİN və DSX əməliyyat keçirdi: Saxlanılan var

***DIN və Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən birgə keçirilən əməliyyat-axtarış tədbirlərilə axtarışda olan şəxs saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin regional qrupundan məlumat verilib.

Bildirilib ki, 1964-cü il təvəllüdlü, əvvəllər məhkum olunan Həsənov Nasib Qara oğlu istintaqa təhvil verilib. O, Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə təqsirləndirilən şəxs qismində axtarışda olub.

Aidiyyəti üzrə araşdırmalar davam etdirilir.

## Palata Neft Fondunun büdcəsinin icrasına rəy verdi

***Hesablama Palatası 2025-ci il iş planına və 24 aprel 2025-ci il tarixli Kollegiya iclasının qərarı ilə təsdiq edilmiş proqrama əsasən Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) vəsaitlərinin formalaşdırılmasının və əsas istiqamətlər üzrə istifadəsinin auditini aparıb, qurumun 2024-cü il büdcəsinin icrasına rəy verib.***

"Unikal" bu barədə Palataya istinadən xəbər verir.

Məlumata görə, auditor hesabatının hazırlanmasında "Hesablama Palatası haqqında" qanunun 22.13-cü maddəsinin, Hesablama Palatası Kollegiyasının 7 dekabr 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Hesablama Palatası tərəfindən kənar dövlət maliyyə nəzarəti tədbirlərinə hazırlıq, kənar dövlət maliyyə nəzarəti tədbirlərinin keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi Qaydaları"nın, Hesablama Palatasının Kollegiyasının 7 fevral 2023-cü il tarixli qərarı ilə təsdiq edilmiş Maliyyə auditinə dair təlimatın və INTOSAI-ın peşəkar bəyanatlar çərçivəsinin (IFPP - INTOSAI Framework of Professional Pronouncements) tələbləri nəzərə alınıb və yaxud müvafiq istinadlar edilib.

## Mərkəzi Bank yeni qayda ilə meyarları sərtləşdirdi

***Mərkəzi Bankın (AMB) İdarə Heyəti 22 iyul 2022-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması Qaydası"nda dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı AMB-nin sədri Taleh Kazımov yeni qərar imzalayıb.

Qərara əsasən, borcalanın zərəri hesablanarkən onun faiz, vergi və amortizasiya xərcləri nəzərə alınmayacaq. Başqa sözlə, borcalanın zərərlə fəaliyyət göstərməsi dedikdə onun faiz, vergi və amortizasiya hesablanmazdan əvvəlki mənfəət göstəricisinin onun cəmi faiz xərclərindən az olması və ya mənfi olması nəzərə alınacaq.

Bundan başqa, yüksək keyfiyyətli qiymətli kağızlara AMB-nin buraxdığı qiymətli kağızlarla eyni kredit reytinqinə malik çoxtərəfli inkişaf banklarının buraxdığı qiymətli kağızlar da aid edilib.

# Dövlət qulluğu üzrə test imtahanları keçiriləcək

***Dövlət Imtahan Mərkəzi avqustun 3-də inzibati rəhbər vəzifələrə aid olan AB, AC və inzibati icraçı vəzifələrə aid olan BA, BB vəzifə qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi imtahanı və dövlət qulluğunda inzibati vəzifələrin B növünə aid olan BB vəzifə altqrupuna uyğun vəzifələr üzrə imtahan keçiriləcək.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib. BB vəzifə altqrupu üzrə test imtahanı elektron qaydada təşkil olunacaq. İmtahan vermək üçün 783 namizəd qeydiyyatdan keçib.

Namizədlər bu linkə daxil olub imtahana buraxılış vərəqəsini çap etməlidirlər. Namizədlər imtahana gələrkən şəxsiyyətini təsdiq edən sənədin əslini və buraxılış vərəqəsini mütləq gətirməlidirlər.



İmtahan saat 10:00-da başlanacaq. Saat 09:45-dən sonra gələnlər imtahana buraxılmayacaqlar.

Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə imtahan vermək üçün AB qrupu üzrə 2, AC qrupu üzrə 6, BA qrupu üzrə 50, BB qrupu üzrə isə 140 olmaqla, ümumilikdə 198 namizəd qeydiyyatdan keçib.

İmtahanı iştirakçıları bu linkə daxil olub buraxılış vərəqəsini çap etməlidirlər.

Buraxılış vərəqəsində imtahana gəlməli olan vaxt və digər zəruri məlumatlar göstərilib. İmtahan saat 16:00-da elektron qaydada təşkil olunacaq və 2 saat 30 dəqiqə davam edəcək. Saat 15:45-dən sonra gələn namizədlər imtahana buraxılmayacaqlar.

Namizədlər imtahana gələrkən şəxsiyyətini təsdiq edən sənədin əslini və buraxılış vərəqəsini mütləq gətirməlidir.

İmtahanların keçirilməsi üçün 11 imtahan rəhbəri, 63 nəzarətçi və 11 buraxılış rejimi əməkdaşı ayrılıb.

# İsti hava ilə bağlı işəgötürənlərə xəbərdarlıq

***Havanın temperaturu 41 dərəcə selsidən çox olduqda işçilərin həyat və sağlamlığının qorunması üçün zəruri tədbirlər görmək işəgötürənlərin əsas vəzifələrindən biridir.***

"Unikal" xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti xəbərdarlıq yayıb.

Bildirilib ki, Əmək Məcəlləsinə əsasən, qeyd edilən hava şəraitində açıq havada və sərinləşdirici qurğular olmayan iş yerlərində bütün növ işlərin görülməsi dayandırılmalıdır.

İşçilərə sərinləşmək üçün imkan yaradılmaqla fasilələr verilməli, fasilələrin sayı, müddəti işəgötürənlə həmkarlar təşkilatının birgə qərarı əsasında müəyyən olunmalıdır.

Bu fasilələr iş vaxtına daxil edilməli və fasilələr zamanı əmək haqqı işçilərin tarif maaşına görə ödənilməlidir.

İş dayandırıldıqda boşdayanma vaxtının haqqı işçinin təqsiri üzündən baş verməyən boşdayanma kimi, tarif maaşının üçdə iki hissəsindən az olmayaraq ödənilməlidir.

Əmək şəraiti şərtləri imkan verdiyi hallarda günün isti vaxtında iş dayandırılaraq (uzun fasilə verilərək) iş günü hissələrə bölünməklə iş rejimi tənzimlənə bilər.



# Kolleclərə ixtisas seçimi başladı

***Umumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) qəbul olmaq üçün ixtisas seçimi iyulun 31-dən avqustun 7-si saat 23:59-dək internet vasitəsilə aparılacaq.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib. Bildirilib ki, ixtisas seçimi mərhələsində abituriyentlər qəbul olmaq istədikləri ixtisasları seçib onların kodlarını "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etməlidirlər.

İxtisas seçiminə qəbul imtahanında topladıqları ümumi balı 50-dən, Azərbaycan dili və ya rus dili fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılırlar.

Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə ümumi balı 50-dən az olmayan (fənlər üzrə bal məhdudiyyəti qoyulmur) və müvafiq komissiya tərəfindən keçirilən qabiliyyət imtahanlarından "məqbul" alan abituriyentlər buraxılırlar. "Xoreoqrafiya sənəti (sahələr üzrə)" və "Rəqs müəllimliyi" ixtisaslarının müsabiqəsində isə ümumi balı 30-dan (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir) az olmayan abituriyentlər iştirak edə bilərlər.



Hər bir abituriyent müxtəlif təhsil müəssisələrinin təhsili dövlət hesabına və ödənişli əsaslarla 12-dək ixtisas kodunu seçə bilər. İxtisas kodlarının ardıcıllığını abituriyent özü müəyyənləşdirir. Müsabiqə zamanı abituriyentin yerləşdirilməsi onun seçdiyi ixtisasların ardıcıllığı nəzərə alınmaqla qəbul planı çərçivəsində həyata keçirilir və abituriyent müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilir.

2025/2026-cı tədris ili üçün ümumi təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul aparılan ixtisaslar, plan yerləri və ixtisas seçimi ilə bağlı digər zəruri məlumatlar "Abituriyent" jurnalının 3-cü sayında nəşr olunub.

Qeyd edək ki, 2025-ci ildə orta ixtisas təhsili müəssisələrinə tələbələrin qəbul olması üçün 8144 plan yeri ayrılıb. Ötən il müvafiq göstərici 10930 yer idi. Bu il qeydiyyatdan keçən və müsabiqə şərtini ödəyən 24059 abituriyent ixtisas seçiminə buraxılıb. Ötən il isə 27743 nəfərin müsabiqədə iştirak hüququ var idi. Abituriyentlərin nəzərinə çatdırırıq ki, ötən il olduğu kimi, bu il də müsabiqə şərtini ödəmiş, lakin ərizə qəbulu zamanı qeydiyyatdan keçməyən abituriyentlərə 31 iyul - 7 avqust tarixlərində qeydiyyatdan keçib ixtisas seçimində iştirak etməyə icazə verilir. Ona görə də ixtisas seçimində iştirak edən abituriyentlərin sayının daha da artacağı gözlənilir.

Abituriyentlər ixtisas seçimi ilə bağlı DİM-in "Abituriyent Məsləhət Mərkəzləri"nə də müraciət edə bilərlər. Müsabiqə iştirakçılarına Qərbi Kaspi, Azərbaycan, Bakı Biznes, Odlar Yurdu, Memarlıq və İnşaat, Texniki Universitetdə, Sumqayıt Dövlət Universitetində, Gəncədə Azərbaycan Dövlət Aqrar Universitetində, və DİM-in regional bölmələrində yerləşən "Abituriyent Məsləhət Mərkəzləri"ndə ödənişsiz kömək göstərilir.

28_27 IYUl-QARA.qxd 7/31/2025 9:34 PM Page 14



# Bu şəxslər 5 il tez pensiyaya çıxacaqlar



***"Baş nazir "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında qərar imzalayıb".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, yeni sənədlə daha tez pensiyaya çıxanların siyahısı dəqiqləşdirilərək müəyyən əlavələr edilib:

"Belə ki, qızıl otağının nəzarətçiləri və emal, qırma, daşıma, topaqələvileşdirmə sahələrində nəzarətçilər əlavə olunmaqla mühəndislər, o cümlədən elektrik mühəndislər ilə yanaşı metallurqlar güzəştli siyahıya daxil edilib. Belə ki, daha tez pensiyaya çıxmaq hüququ yalnız çoxuşaqlı ailələrə deyil, bir sıra digər vətəndaşlarımıza da şamil olunur. Güzəştli şərtlər ilə pensiya hüququ "Əmək pensiyaları" haqqında qanunla təsbit olunub. Belə ki, qanunun 8-ci maddəsi "uşaqlara görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ olan şəxsləri", 9-ci maddəsi isə "güzəştli şərtlərlə əmək pensiyası hüququ olan digər şəxsləri" müəyyən edir. Sözügedən qanuna əsasən, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş səkkiz yaşınadək övladlığa və ya qəyyumluğa götürülmüş uşaqlar da daxil olmaqla beş və daha çox uşağı olan və ya əlilliyi olan uşağı olan qadınların və kişilərin, uşaqların səkkiz yaşınadək sağ olması şərtilə yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ var. Bu o deməkdir ki, çox uşaqlı ailələrdə analar 59, əgər bu hüquqdan atalar isə istifadə edirsə o zaman onlar 60 yaşında pensiyaya çıxırlar.

Qanunun 9-cu maddəsinə güzəştli şərtlər ilə pensiya hüququ qazanan vətəndaşlarımızın isə siyahısı kifayət qədər genişdir. Belə ki, axırıncı iş yerindən asılı olmayaraq, güzəştli şərtlərlə yaşa görə əmək pensiyası almaq hüququ verən incəsənətin xüsusi sahələrinin, yeraltı, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərin Nazirlər Kabinetinin təsdiq etdiyi siyahısında nəzərdə tutulan işlərdə azı 12 il 6 ay çalışmış kişilərin və azı 10 il çalışmış qadınların yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ vardır. Bununla yanaşı, hipovizqanizm xəstəliyinə tutulan şəxslərin (liliputların) və fizioloji mütənasibliyi pozulmuş cırtdanboy şəxslərin azı 5 il sığorta stajı olduqda pensiya yaş həddi 20 il azaldılır. Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işlə əlaqədar vəzifələrdə çalışanların həmin işlər üzrə azı 25 il, səhhətinə görə uçuş işindən azad olunmuş şəxslərin isə həmin işlər üzrə azı 20 il sığorta stajı olduqda 15 il tez əmək pensiyası ala bilirlər. Eyni zamanda, bir sıra dövlət sektorlarında, o cümlədən prokurorluq, hərbi xidmət, ədliyyə orqanları və s. çalışanların da qulluq müddətindən asılı olaraq daha tez pensiyaya çıxmaq hüquqları vardır.

Bütün bunlar ilə yanaşı, daha çox vətəndaşlarımıza tez pensiyaya çıxmaq hüququnun verilməsi ilə bağlı təkliflərimizi də təqdim edirik. Pensiya islahatların dərinləşməsi pensiya yaşının müəyyənləşdirilməsində kəmiyyət göstəriciləri ilə yanaşı, keyfiyyət göstəricilərindən istifadəni daha da aktuallaşdırır".

## Astarada "2025-ci ilin məhsulu üçün kənd təsərrüfatı bitkiləri əkinlərinin qəti uçotunun yekunları haqqında" göstəricilər

***Rayonda yazlıq bitkilərin əkini başa çatmışdır. Cari ilin iyun ayının 20-nə 3978,2 hektar sahədə yazlıq bitkilərin əkini aparılmış və keçən ilin müvafiq dövrünə nisbətən 84,5 hektar və ya 2,1 faiz azalmışdır. Cari ilin yazında 666,5 hektar sahədə dənli və dənli paxlalı bitkilər (qarğıdalısız), 180,1 hektar sahədə dən üçün qarğıdalı, 894,0 hektar sahədə kartof,1819,3 hektar sahədə tərəvəz, 346,0 hektar sahədə bostan bitkiləri və 72,3 hektar sahədə çoxillik bitkilərin səpini aparılmışdır.***

Yazlıq bitkilərin əkini haqqında daha ətraflı məlumat aşağıdakı cədvəldə verilmişdir.

**Yazlıq bitkilərin əkini** **hektar**

| | İyun ayının 20-nə | | 2025-ci il 2024-cü ilə nisbətən, faizlə |
|---|---|---|---|
| | 2025 | 2024 | |
| Yaz əkininin əvvəlindən əkilmişdir | 3978,2 | 4062,7 | 97,9 |
| o cümlədən: | | | |
| Dənli və dənli paxlalılar (qarğıdalısız) | 666,5 | 641,7 | 103,9 |
| onlardan: buğda | - | - | - |
| arpa | 20 | - | - |
| vələmir | - | 6,7 | - |
| çəltik | 306,5 | 290,0 | 105,7 |
| Qarğıdalı | 180,1 | 182,5 | 98,7 |
| o cümlədən: dən üçün | 180,1 | 182,5 | 98,7 |
| Kartof | 894,0 | 915,0 | 97,7 |
| Tərəvəz | 1819,3 | 1875,6 | 97,0 |
| Ərzaq üçün bostan bitkiləri | 346,0 | 369,0 | 93,8 |

Hesabat məlumatlarına əsasən 2025-ci ilin məhsulu üçün əvvəlki illərdə əkilmiş çoxillik otların əkin sahələri də daxil edilməklə, payızlıq və yazlıq bitkilərin ümumi əkin sahəsi 5331,4 hektar olmuş və keçən illə müqayisədə 159,0 hektar və yaxud 2,9 faiz azalmışdır.

Rayon üzrə əkin sahəsinin 946,6 hektarını və yaxud 17,7 faizini dənli və dənli paxlalı bitkilərin, 3059,3 hektarını (57,4 faiz) kartof, bostan və tərəvəz bitkilərinin, 1325,5 hektarını (24,9 faiz) yemlik bitkilərin əkin sahələri təşkil etmişdir.

Dənli və dənli paxlalılar. Dənli və dənli paxlalı bitkilərin 88,0 hektarını (9,3 faiz) buğda, 32,0 hektarını (3,4 faiz) arpa, 306,5 hektarını (32,4 faiz) çəltik, 180,1 hektarını (19,0 faiz) dən üçün qarğıdalı, 340,0 hektarını (35,9 faiz) paxlalı bitkilərin əkin sahələri təşkil etmişdir.

Cari ildə dənli və dənli paxlalı bitkilərin əkin sahəsi əvvəlki ilə nisbətən 10,6 hektar və yaxud 1,1 faiz azalmışdır. 2025-ci ilin məhsulu üçün 88,0 hektar sahədə buğda, 12,0 hektar sahədə isə arpa əkilmişdir ki, bu əkinlərin hamısı 2024-cü ilin payızında əkilmişdir.

Kartof, tərəvəz və bostan bitkiləri. Ümumi əkin sahəsinin 3059,3 hektarı (57,4 faiz) kartof, tərəvəz və bostan bitkiləri əkinlərinin payına düşmüş və keçən ilə nisbətən 3,2 faiz azalmışdır. Bunun 894,0 hektarı (29,2 faiz) kartof, 1819,3 hektarı (59,5 faiz) tərəvəz, 346 hektarı (11,3 faiz) isə bostan bitkilərinin əkin sahələridir.

Yemlik bitkiləri. Ümumi əkin sahəsinin 1325,5 hektarı və ya 24,9 faizi yemlik bitkilərin payına düşmüşdür. Yemlik bitkilərin 72,3 hektarını (5,5 faiz) cari ilin çoxillik otları, 1253,2 hektarını (94,5 faizini) keçən illərin çoxillik otlarının əkin sahəsi təşkil etmişdir.

Əhali təsərrüfatları üzrə 670,5 hektar sahədə dənli bitkilər (qarğıdalısız), 180,1 hektar sahədə qarğıdalı, 892,0 hektar sahədə kartof, 346 hektar sahədə bostan bitkiləri, 1819,3 hektar sahədə tərəvəz və 1241,5 hektar sahədə yem bitkiləri əkilmişdir.

Kənd təsərrüfat müəssisələri üzrə 2025-ci ilin məhsulu üçün əvvəlki illərdə əkilmiş çoxillik otların əkin sahələri də daxil edilməklə, payızlıq və yazlıq bitkilərin ümumi əkin sahəsi 182,0 hektar olmuşdur.

*Astara Rayon Statistika İdarəsi*



## Ucarda məhsul bazarı

***2025-ci ilin yanvar-iyun aylarında pərakəndə ticarət şəbəkələri tərəfindən əhaliyə 123391,2 min manatlıq və ya 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 1,7 faiz çox istehlak malları satılmışdır.***

2025-ci ilin yanvar-iyun aylarında pərakəndə ticarət şəbəkələri tərəfindən əhaliyə satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının həcmi 51898,9 min manat, qeyri-ərzaq mallarının həcmi 71492,3 min manat olmuşdur və əvvəlki ilin eyni dövrünə nisbətən müvafiq olaraq ərzaq məhsulları, içkilər və tütün məmulatlarının həcmi 13,1 faiz azalmış, qeyri-ərzaq mallarının həcmi isə 27,4 faiz artmışdır.

*Ucar Rayon Statistika İdarəsinin baş məsləhətçisi Tural Əzizli*

## Ali məktəblərə ixtisas seçiminin vaxtı məlum oldu

***Ali təhsil müəssisələrinə qəbul olmaq üçün ixtisas seçimi bütün ixtisas qrupları üzrə 2025-ci il avqustun 11-dən 19-dək olan müddətdə aparılacaq.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib.

"Abituriyent" jurnalının 4 saylı buraxılışı, həmçinin "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli" kitabçaları seçim başlanana qədər nəşr olunacaq.



## 2025-ci ildə Samux rayonunda 46688,5 ton taxıl yığılıb



***Rayonun təsərrüfatlarında 10822,4 hektar taxıl sahəsində biçin aparılmış, həmin sahələrdən 46688,5 ton məhsul yığılmışdır.***

Məhsuldarlıq hər hektardan 43,1 sentner olmuşdur. Biçilən sahələrin 5292,6 hektarı buğda, 5529,8 hektar arpa sahələri olmuşdur. Biçilmiş sahələrdən 25818,7 ton buğda, 20869,8 ton arpa yığılmışdır. Buğdanın məhsuldarlığı hər hektardan 48,8 sentner, arpanın məhsuldarlığı isə 37,7 sentner təşkil etmişdir.

Rayonunda taxıl biçini başa çatmışdır.

*Samux Rayon Statistika İdarəsi*

28_27 IYUl-QARA.qxd 7/31/2025 9:34 PM Page 15



## Məzuniyyətdən qayıtdıqdan sonra Baş nazir postundan getdi

***Korrupsiya qalmaqalından sonra siyasi gələcəyi ilə bağlı qərar vermək üçün ölkə prezidenti Gitanas Nauseda tərəfindən iki həftə vaxt verilən Litvanın baş naziri Gintautas Paluckas istefa verib.***

"Unikal" xəbər verir ki, bu barədə LRT portalı məlumat yayıb.

"Paluckas bu gün səhər zəng edərək istefa verdiyini elan edib. O, yeganə düzgün qərar verdi, bu fürsətdən istifadə etdi", - portal Litva prezidentindən sitat gətirib.

Məlumatına görə, Paluckas həm baş nazir, həm də Litva Sosial Demokrat Partiyasının sədri vəzifəsindən istefa vermək qərarına gəlib. Nauseda qeyd edib ki, hazırda Litvanın siyasi həyatında "əsaslı heç nə dəyişmir".

İyulun 25-də Paluckas Nausedanın ultimatumundan sonra ev işləri ilə məşğul olmaq üçün iki həftəlik məzuniyyətə çıxmışdı.

***Gülayə Mecid***

## "Rusiyanın müdafiə sənayesini məhv etməliyik" - Zelenski

***Rusiya qəddar zorakılıq və insan hüquqlarına, bərabərliyinə tam etinasızlıq dövründə ilişib qalıb.***

"Unikal" xəbər verir ki, bunu Finlandiyada Helsinki+50 konfransında çıxışı zamanı Ukrayna prezidenti Volodimir Zelenski deyib.

"Bütün dünya onu müharibəni dayandırmağa çağırsa da, Rusiya zərbə vurmağa davam edir. Bu, Rusiyanın başladığı, Rusiyanın qəsdən sürüklədiyi, yalnız Rusiya rəhbərliyinin istədiyi müharibədir", - deyə o qeyd edib. Zelenski həmçinin qeyd edib ki, müharibədən sonrakı dünya nizamının tamamilə inkarı Rusiyadakı mövcud rejimin əsasını təşkil edir: "Lakin Moskva bu müharibəni dayandırmağa məcbur edilə bilər.

Biz Rusiyanın hərbi maşınının qarşısını tamamilə almalıyıq, onun müdafiə sənayesini məhv etməli, enerji gəlirlərini məhdudlaşdırmalı və nəhayət, özümüzü təcavüzdən müdafiə etmək üçün Rusiyanın bütün dondurulmuş aktivlərindən, o cümlədən sərvətlərdən istifadə etməliyik".

***Ağarza Elçinoğlu***

## Türkiyədə qadın ilk dəfə briqada generalı oldu

***Türkiyədə ilk dəfə qadın briqada generalı vəzifəsinə təyin olunub.***

"Unikal" xəbər verir ki, bu barədə "Haber Global" yazıb. Gülden Mat Şakir Türiyə lideri Rəcəb Tayyib Ərdoğanın fərmanı ilə briqada generalı rütbəsinə yüksəlib.

## ABŞ İrana dəymiş ziyanı kompensasiya etməlidir

***ABŞ İrana dəymiş ziyanı kompensasiya etməlidir.***

"Unikal" xəbər verir ki, bunu İranın xarici işlər naziri Abbas Əraqçi deyib.

Rəsmi bildirib ki, Amerika tərəfi İrana hücumun səbəbini açıqlamalıdır:

"Onlar danışıqların ortasında niyə bizə hücum etdiklərini izah etməlidirlər və bunu təkrar etməyəcəklərinə zəmanət verməlidirlər. Və dəymiş ziyanı ödəməlidirlər", - Əraqçi bildirib.

Xatırladaq ki, iyunun 22-də ABŞ İranın nüvə obyektlərini B-2 gözə görünməz bombardmançı təyyarələri ilə vurmuşdu.

***Gülayə Mecid***

# Ermənistanda 12 500 nəfər fərariliyə görə axtarışdadır - Paşinyan açıqladı

***"Bu gün insanlar fars ordusundan qaçdıqları kimi, Ermənistan ordusundan da eyni sürətlə qaçırlar".***



"Unikal" xəbər verir ki, bunu Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan deyib.

O qeyd edib ki, bu gün Ermənistanda 13500 nəfər axtarışdadır: "Onlardan 12500-ə yaxını hərbi xidmətdən yayındığına görə axtarışdadır.

Hakimiyyəti sevməyənlər ona ya "türk", ya da "rus" deyirlər. Hakimiyyət dövlətin xüsusiyyətidir və sən hakimiyyətdəsənsə, erməni ola bilməzsən - sən ya türksən, ya russan, bu bizim problemimizdir".

***Ağarza Elçinoğlu***

# "Bu, özəl şirkətlərə həvalə edilib" - İrəvandan açıqlama

***"Ermənistan öz ərazisindən keçən nəqliyyat marşrutlarının Ermənistan Respublikasının ərazi bütövlüyü, suverenliyi və yurisdiksiyası ilə bir araya sığmayan heç bir variantını heç vaxt müzakirə etməyib, müzakirə etmir və müzakirə etməyəcək".***

"Unikal" xəbər verir ki, bunu Ermənistan Baş nazirinin mətbuat katibi Nazeli Bağdasaryan deyib.

"Ermənistan mətbuatında regionun nəqliyyat yollarının açılması məsələsində Ermənistanın mövqeləri ilə bağlı müəyyən çaşqınlığın olduğu nəzərə çarpır və media Ermənistan rəsmilərinin bəyanatlarında ziddiyyətlər görür.

Müzakirələrdən danışan Ermənistan nümayəndələri iyulun 16-da Paşinyanın mətbuat konfransında danışdığı Ermənistanın ərazi bütövlüyü, suverenliyi, yurisdiksiyası, tikinti hüquqları və s. çərçivəsində qəbul edilmiş qətnamələri nəzərdə tutur.

Ermənistan Respublikasının ərazi bütövlüyü, suverenliyi və yurisdiksiyası təbii ki, kənardan verilə bilməz. Dəmir yollarının, boru kəmərlərinin və elektrik xətlərinin biznes idarəçiliyi kənardan götürülə bilər. Yeri gəlmişkən, bu gün Ermənistanda avtomobil yollarının saxlanması və idarə olunması həmişə özəl şirkətlərə həvalə edilib. Həmin idarəçi-



liyi kimin, hansı keyfiyyətlə həyata keçirməsi başqa məsələdir. Amma bunun müzakirə olunan mövzu ilə heç bir əlaqəsi yoxdur", - deyə o qeyd edib.

***Ağarza Elçinoğlu***

# Xoruz kişini bıçaqlayıb öldürdü

***İndoneziyanın Denpasar şəhərində faciəvi hadisə baş verib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər ki, 50 yaşlı Nengah Sudana ənənəvi balili döyüş toyuqları mərasimini izləyərkən həyatını itirib.

Məlumata görə, döyüşdən əvvəl toyuqların pəncələrinə iti metal bıçaqlar bağlanıb. Gözlənilmədən toyuqlardan biri nəzarətdən çıxaraq digərinə hücum edib. Lakin hədəfi düzgün tutmayaraq səhvən yaxın-



lıqda dayanan Sudananın qarnına dəyib.

Yaralanan şəxs dərhal xəstəxanaya çatdırılsa da, onun həyatını xilas etmək mümkün olmayıb.

Qeyd edək ki, döyüş toyuqları mərasimləri Balidə hindu dini ayinlərinin bir hissəsi hesab olunur. Qan axıdılması mərasimdə məğlub olan toyuğun qurban verilməsi ilə müşayiət olunur və bu, pis ruhların qovulması üçün simvolik akt sayılır.

# "Medvedev özünü hələ də prezident hesab edir" - Tramp



***Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev sözlərinə diqqət yetirməlidir.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ prezidenti Donald Tramp bildirib.

ABŞ lideri "Truth" sosial şəbəkəsindəki son paylaşımlarının birində qeyd edib: "Hindistanın Rusiyaya nə edəcəyi məni maraqlandırmır. Onların hər ikisi öz ölmüş iqtisadiyyatlarını məhv edə bilər, bu, məni maraqlandırmır. Bizim Hindistanla çox az əməkdaşlığımız var, onların tarifləri həddən artıq yüksəkdir, demək olar ki, dünyada ən yüksəkdir. Həmçinin ABŞ-nin Rusiya ilə demək olar ki, ortaq işi yoxdur. Gəlin bunu olduğu kimi buraxaq və Rusiyanın uğursuz keçmiş prezidenti Medvedevə deyək ki, sözlərinə diqqət etsin. O, hələ də özünü prezident hesab edir".

ABŞ prezidenti bununla Rusiya Təhlükəsizlik Şurasının sədr müavininin Trampın Moskvaya ultimatumlar təqdim etmək cəhdlərinin Ukrayna ilə münaqişənin kəskinləşməsinə deyil, ABŞ ilə birbaşa toqquşmasına gətirib çıxara biləcək təhdid olması barədə bəyanatına cavab verib.

***Ağarza Elçinoğlu***



## Əl Şaraa Rusiyaya səfər edəcək

***Rusiya Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın oktyabrda Moskvada keçiriləcək birinci Rusiya-Ərəb sammitində iştirak edəcəyini gözləyir.***

"Unikal" xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib.

"Əlbəttə, biz ümid edirik ki, Əhməd əl-Şaraa oktyabrın 15-nə planlaşdırılan Rusiya -Ərəb Liqasının birinci sammitində iştirak edə biləcək", - diplomat bildirib.

***Gülayə Mecid***

28_27 IYUl-QARA.qxd 7/31/2025 9:34 PM Page 16



# “Qarabağ”ın Çempionlar Liqasındakı oyunlarının hakimləri bəlli oldu

***“Qarabağ”ın UEFA Çempionlar Liqasının III təsnifat mərhələsində Şimali Makedoniyanın “Şkendiya” klubu ilə keçirəcəyi hər iki oyuna hakim təyinatları açıqlanıb.***

”Unikal” xəbər verir ki, UEFA Skopyedəki ilk görüşü Slovakiyadan, Bakıdakı cavab qarşılaşmasını isə Niderlanddan olan hakimlər briqadasına həvalə edib:

5 avqust

22:00.“Şkendiya” - “Qarabağ”

Baş hakim: İvan Kruzliak

Baş hakimin köməkçiləri: Branislav Hançko, Yan Pozor

Dördüncü hakim: Peter Kraloviç

VAR: Mixal Oçenaş

AVAR: Boris Marhefka

Skopye, “Todor Proeski” stadionu

12 avqust

20:00.“Qarabağ” - “Şkendiya”

Baş hakim: Denni Makkeli

Baş hakimin köməkçiləri: Hessel Steeqstra, Yan de Vries

Dördüncü hakim: Mark Naqteqaal

VAR: Dennis Hiqler

AVAR: Riçard Martens

Bakı, Tofiq Bəhramov adına Respublika Stadionu.

# Premyer Liqaya yüksələn klublara bu güzəştlər ediləcək

AFFA İcraiyyə Komitəsinin bu il martın 14-də keçirilmiş iclasında 2025/2026-cı illər mövsümündə Azərbaycan Premyer Liqasında komanda sayının artırılması ilə əlaqədar yuxarı dəstəyə yüksələcək klublara infrastruktur, inzibati və digər sahələrdəki çatışmazlıqları aradan qaldırmaq üçün 1 illik möhlət verilməsi ilə bağlı detalları açıqlayıb.

Milli assosiasiyadan ”Unikal”a bildirilib ki, qərara əsasən, son 3 mövsümdə Premyer Liqada çıxış etməmiş və son mövsümün nəticələrinə əsasən I Liqadan elitaya yüksəlmiş “Karvan-Yevlax” və “İmişli” klublarının nəzdində çalışan məşqçilər üçün Lisenziyalaşdırma qaydalarında nəzərdə tutulmuş Məşqçilik ixtisası dərəcələri bir kateqoriya aşağı məqbul hesab edilib (UEFA C kateqoriyadan aşağı olmamaq şərti ilə).

Bundan başqa, həmin klubların U-16, U-17, U-19 və əvəzedici komandaları liqalarda iştirak etməyə bilər.

Qeyd edək ki, bu qərarlar ötən mövsümün sonunda yüksək liqaya vəsiqə qazanan “Qəbələ” klubuna şamil olunmur. Çünki “qırmızı-qaralar” yalnız ötən mövsüm Premyer Liqada iştirak etməyib və 1 illik fasilədən sonra elitaya qayıdıb.

# Futbolda yeni qaydalar

***Beynəlxalq Futbol Assosiasiyaları Şurası (IFAB) 2025/2026-cı illər mövsümündən etibarən tətbiq ediləcək yeni qaydaları təsdiqləyib.***

”Unikal” xəbər verir ki, yeniliklər qapıçıların davranışları, penaltilər, hakimlərlə ünsiyyət və oyunun ədalətli idarə olunması ilə bağlıdır. Ən diqqətçəkən məqam isə qapıçının topu əlində saxlama müddətinə məhdudiyyət qoyulmasıdır.

Qapıçının topu 8 saniyədən artıq əlində saxlaması qadağan edilir

Yeni qaydalara əsasən, qapıçı topu öz cərimə meydançasında 8 saniyədən çox əlində saxlayarsa, komandasının əleyhinə künc zərbəsi təyin olunacaq. Bu vaxta qolkiperin topu havaya atması, əlində saxlaması, yerə qoyması və ya tək əllə tutması da daxildir. Qapıçının ayaqda və ya yerdə olması fərq etməyəcək. Topun qolkiperin tam nəzarətində olduğu andan etibarən hakim saymağa başlayacaq. İlk dəfə bu qaydanı pozan qapıçı üçün yalnız künc zərbəsi təyin ediləcək. Bu hal ikinci dəfə yaşanarsa, xəbərdarlıq ediləcək, üçüncü pozuntu zamanı isə sarı vərəqə veriləcək. Qapıçı hansı künc bayrağına daha yaxındırsa, zərbə həmin küncdən yerinə yetiriləcək.

Təsadüfi iki toxunmaya görə penalti zərbəsi yenidən vurulacaq

Futbol qaydalarına görə, penalti zərbəsi zamanı oyunçu topa yalnız bir dəfə toxunmalıdır. Əgər iki dəfə toxunarsa, bu qayda pozuntusu sayılır və vurduğu qol ləğv olunur. Yeni mövsümdən etibarən penalti zamanı oyunçu təsadüfən topa iki dəfə toxunsa (ayağı sürüşsə və topa nəzarətsiz şəkildə toxunuş etsə) qol sayılmayacaq, amma penalti təkrarlanacaq.

Hakim qərarlarında yalnız kapitanla ünsiyyət qurulucaq

Yeni qaydalara əsasən, hakimin verdiyi önəmli qərarlarda və ya VAR ilə əlaqəyə keçdiyi hallarda yalnız komanda kapitanı onunla danışa biləcək. Digər oyunçular hakimi mühasirəyə alaraq qərara etiraz edə bilməyəcəklər. Bu qaydaya əməl etməyən futbolçular vərəqə ilə cəzalandırılacaq. Əgər komandanın kapitanı qapıçıdırsa, onun yerinə başqa bir oyunçu əvvəlcədən seçilərək referiyə bildirilməlidir.

Topun kimə veriləcəyi son toxunuşla deyil, nəzarətlə müəyyənləşəcək

Əvvəllər oyun dayandırıldıqda top ona son toxunan komandaya verilirdi. Bu isə bəzi hallarda narazılığa səbəb olurdu. Yeni mövsümdən hakim topun hansı komanda tərəfindən aydın şəkildə nəzarətdə saxlandığını görərsə, top həmin komandaya veriləcək.

Ehtiyat oyunçu və ya məşqçi topa təsadüfən toxunarsa, vərəqə göstərilməyəcək

Əvvəlki qaydalara görə, texniki zonadakı bir məşqçi və ya ehtiyat oyunçu top meydanı tərk etməmiş ona toxunduqda sarı vərəqə göstərilir və cərimə zərbəsi təyin edilirdi. Yeni qərara əsasən, əgər bu toxunuş təsadüfən baş veribsə, artıq vərəqə göstərilməyəcək və oyun sərbəst zərbə ilə davam etdiriləcək.

Ofsaydda qapıçıya dair vacib dəyişiklik tətbiq ediləcək

Oyundankənar vəziyyətlərin müəyyənləşdirilməsində topa ilk toxunma anı əsas götürülür. Əgər bu toxunuş qapıçı tərəfindən edilirsə, onun topu əlindən buraxdığı an - yeni sonuncu təmas nöqtəsi əsas götürüləcək. Bu dəyişiklik ofsayd qərarlarının daha dəqiq verilməsinə şərait yaradacaq.

# "Qarabağ" 150-yə çatdı

***Azərbaycan klublarının avrokuboklardakı qələbə sayı 150-yə çatıb.***

”Unikal” Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, yubiley qalibiyyəti Çempionlar Liqasının II təsnifat mərhələsində “Qarabağ” və “Şelburn” komandaları arasında cavab oyununa təsadüf edib.

Ağdam təmsilçisi İrlandiya klubuna 1:0 hesabı ilə qalib gəlib. 150-ci qələbə qitə səhnəsindəki 477-ci matça təsadüf edib.

Azərbaycan təmsilçiləri Çempionlar Liqasında 38, Avropa Liqasında (əvvəl UEFA Kuboku) 82, Konfrans Liqasında 21, İntertoto Kubokunda 9 dəfə azarkeşlərini sevindirib. Qələbələrdən 87-si evdə, 63-ü səfərdə əldə olunub.

Qeyd edək ki, Azərbaycan komandalarının avrokuboklarda ilk qələbəsi 1996-cı il iyulun 17-nə təsadüf edib. Həmin gün “Neftçi” Sofiya “Lokomotiv”ini Bakıda 2:1 hesabı ilə məğlub edib.

# İbrahima Vadji yenidən Azərbaycanda - Rəsmi

***”Turan Tovuz” sıralarına yeni futbolçu qatıb.***

“Unikal” xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb.

Tovuz təmsilçisi ”Qarabağ”ın sabiq oyunçusu İbrahima Vadjini transfer edib. Son olaraq Fransa təmsilçisi ”Sent-Etyen”də çıxış edən hücumçu ilə 1+1 illik müqavilə imzalanıb. 30 yaşlı senegallı futbolçu karyerası ərzində Türkiyədə ”Qaziantep BB”, Norveçdə ”Mölde” və ”Hauqesund”un da formasını geyinib.

Xatırladaq ki, Vadji 2021-2022-ci illərdə Ağdam təmsilçisində oynayıb.

# Zubir Azərbaycanda bunu bacaran 4-cü futbolçu oldu

***“Qarabağ”ın futbolçusu Abdullah Zubir avrokuboklarda 100-cü oyununu keçirib.***

“Unikal” Peşəkar Futbol Liqasının mətbuat xidmətinə istinadən xəbər verir ki, 33 yaşlı fransalı yarımmüdafiəçinin yubileyi Çempionlar Liqasının II təsnifat mərhələsinin “Şelburn”la (İrlandiya) cavab görüşünə (1:0) təsadüf edib.

O, qitə kuboklarında 2018-ci ildə debüt edib. Zubir avrokuboklarda yalnız “Qarabağ”ın formasını geyinib.

Yarımmüdafiəçi Çempionlar Liqasında 34, Avropa Liqasında 50, Konfrans Liqasında 16 matça çıxıb. O, bu görüşlərdə vurduğu 14 qolla Azərbaycan klublarının ən yaxşı bombardiridir.

Zubir Azərbaycan klublarının heyətində 100 və daha çox avrokubok oyunu keçirən ilk legionerdir. Ona qədər yalnız üç futbolçu “100”ü arxada qoyub. Bunlar Maksim Medvedev, Qara Qarayev və Rəşad Sadıqovdur.

# Azərbaycanı tərk etmək üçün öz cibindən PUL VERDİ

***”Səbail”dən ayrılan Süleyman Alluş karyerasını Mərakeşdə davam etdirəcək.***



“Unikal” xəbər verir ki, 23 yaşlı niderlandlı ”MAS Fes”lə müqavilə imzalayıb.

Afrika təmsilçisinin yarımmüdafiəçi ilə bağladığı kontraktın müddəti 2028-ci ilə qədərdir.

S.Alluş 2024-cü ildən ”Səbail”in formasını geyinirdi. O, bu müddətdə 47 oyuna 6 qol vurub.

Niderland yığmasının heyətində gənclər arasında Avropa çempionu olmuş Alluşun Bayıl klubu ilə müqaviləsi gələn ilin yayında başa çatacaqdı.

# "Fənərbaxça" Milan Şkrinyarı transfer edib

***”Fənərbaxça” PSJ-yə məxsus olan Milan Şkrinyarın keçidini həll edib.***

“Unikal” xəbər verir ki, bu barədə klubun mətbuat xidməti məlumat yayıb.

Klublar arasında razılıq əldə olunub.

30 yaşlı mərkəz müdafiəçisi tibbi müayinədən keçmək və müqavilə imzalamaq üçün artıq İstanbuldadır.

Qeyd edək ki, Milan Şkrinyar 2024/2025 mövsümünün ikinci yarısında icarə əsasında ”Fənərbaxça”nın formasını geyinib. 30 yaşlı futbolçu Super Liqa təmsilçisinin heyətində meydana çıxdığı 23 rəsmi matçda 3 qol və 2 məhsuldar ötürmə ilə yadda qalıb.